# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 21 (3631) Cümə axşamı / 18-24 iyun 2026-cı il Qiyməti 40 qəpik


MÜSAHİB

## Şuşa Bəyannaməsinin əhəmiyyəti daha da artıb



**Fazil Mustafa,**
Milli Məclisin deputatı

***2021-ci il iyunun 15-də Azərbaycan və Türkiyə liderləri tərəfindən imzalanan Şuşa Bəyannaməsi iki qardaş ölkə arasında münasibətləri strateji tərəfdaşlıq səviyyəsindən müttəfiqlik mərhələsinə yüksəldən tarixi sənəd kimi qiymətləndirilir. Beş il ərzində bu Bəyannamə təkcə Bakı-Ankara münasibətlərinin inkişafına deyil, həm də Cənubi Qafqazda yeni geosiyasi reallıqların formalaşmasına mühüm təsir göstərib. Hərbi təhlükəsizlik, enerji, nəqliyyat, iqtisadiyyat və türk dünyasının inteqrasiyası istiqamətində əldə olunan nəticələr Şuşa Bəyannaməsinin strateji əhəmiyyətini daha da artırıb. Müsahibimiz Milli Məclisin deputatı Fazil Mustafadır:***

*Şuşa Bəyannaməsi Türk dövlətləri arasındakı münasibətlər sisteminə də transfer olunmalı və yeni mərhələyə keçməlidir*

Səh. 3

MÜSAHİB



**Svetlana Salamatova,**
Ukrayna Qadın Geosiyasi Alyansının prezidenti

- Putinin məqsədi kiyevliləri psixoloji cəhətdən sındırmaqdır
- Vəziyyətin Ukraynanın xeyrinə nə qədər tez dəyişəcəyini görəcəyik - bu, bizim torpağımızdır
- ABŞ noyabrda keçiriləcək növbəti seçkilərə hazırlaşır və bu da rəsmi Vaşinqtonu Ukraynanın Putinlə ölümcül mübarizədə uduzmasının qarşısını alacaq tədbirlər görməyə məcbur edir

Səh. 6

# Sülh prosesində səssiz diplomatiya

***Ermənistanda keçirilən seçkilərdən sonra Bakı-İrəvan sülh xəttində yenidən diplomatik fəallıq müşahidə olunur. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin Ermənistana səfəri və tərəflər arasında təmasların intensivləşməsi sülh gündəliyinin yenidən aktuallaşdığını göstərir. Regionda davamlı sabitliyin təmin olunması baxımından bu proses mühüm əhəmiyyət daşıyır. Bununla belə, yekun sülh sazişinin imzalanmasına qədər qət ediləcək yol hələ də müəyyən siyasi, hüquqi və geosiyasi maneələrlə müşayiət olunur. Mövcud şəraitdə əsas sual ondan ibarətdir ki, sülh istiqamətində atılan addımlara hansı amillər maneə yarada bilər və bu maneələrin aradan qaldırılması üçün hansı tədbirlərin görülməsi vacibdir? Millət vəkili Arzu Nağıyev bildirir ki, Cənubi Qafqazda sabitliyin olması çox mühüm məsələdir. Təbii ki, Azərbaycan üçün də ən əsas istiqamət sülhün bərqərar olması, sülh müqaviləsinin imzalanması istiqamətində atılacaq addımlardır:***



"Paşinyan hakimiyyəti seçkilərdə qələbə qazandı. Kommunikasiyaların açılması, delimitasiya və demarkasiya prosesinin davam etdirilməsi istiqamətində addımların atılması mümkündür. Sadəcə olaraq seçicilər bir daha göstərdilər ki, onlar sülhün bərqərar olmasını istəyirlər, müharibə istəmirlər. Bu baxımdan düşünürəm, diplomatik fəaliyyətlərin davam etməsi labüddür və daha konstruktiv mühitin formalaşdırıldığını göstərir.

Əsas bizi maraqlandıran məsələ parlamentin formalaşması və onun konstitusiya islahatlarına getmək üçün legitimliyidir". Deputat bildirir ki, Hikmət Hacıyevin Ermənistana səfəri çox mühüm əhəmiyyət kəsb edirdi. Məhz bu səfərdə son dövrdə müşahidə olunan birbaşa təmaslar fonunda əsas məqam odur ki, vasitəsiz dialoqa üstünlük verilir. Bu görüşlər tərəflər arasında həm kommunikasiya kanallarının açıq saxlanıldığını, həm də mübahisəli məsələlərin birbaşa müzakirə edilməsinə hər iki tərəfin maraq göstərdiyini ifadə edir:

"Əgər bu gün Ermənistanda belə bir görüş keçirilirsə, növbəti görüşlərin Azərbaycanda keçirilməsi də mümkündür". Millət vəkili sülh sazişinin imzalanmasına mane olan əsas problemlərə də toxunub. Onun sözlərinə görə, bu istiqamətdə siyasi və hüquqi problemlər mövcuddur: "Ermənistan Konstitusiyası mütləq şəkildə dəyişdirilməlidir. Bunun üçün referendum keçirilməli, referendumdan sonra qərar qəbul olunmalı və daha sonra parlamentdə ratifikasiya edilməlidir. Ratifikasiya olunduqdan sonra sülh müqaviləsinin imzalanması istiqamətində addımlar atıla bilər ki, bu sənəd ümumilikdə uzunmüddətli və davamlı olsun. Bu baxımdan hüquqi ratifikasiya əsas istiqamət olmalıdır. Azərbaycan üçün bu məsələ prinsipial əhəmiyyət daşıyır və yekun sazişin imzalanması prosesində mühüm faktordur".

*Revanşist yanaşmalar yalnız daxili siyasi risk deyil, həm də təhlükəsizlik baxımından qeyri-sabitlik yaradır*

*Azərbaycan üçün bu məsələ prinsipial əhəmiyyət daşıyır və yekun sazişin imzalanması prosesində mühüm faktordur*



A.Nağıyev qeyd edir ki, Ermənistan-Azərbaycan arasında etimadın möhkəmləndirilməlidir. Bu, bizim üçün mühüm məsələdir: "Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, "Qafqaz evi"nin yaradılması vacib istiqamətdir. Bunun üçün qarşılıqlı etimad möhkəmləndirilməlidir.

Yəni ayrı-ayrılıqda Cənubi Qafqazı böyük güc mərkəzləri qəbul etmir, onlar ümumilikdə regionu vahid məkan kimi qəbul edir və burada siyasi dialoqun davam etdirilməsində maraqlıdırlar. Bu baxımdan sərhədlərin delimitasiya və demarkasiya prosesinin davam etdirilməsi, kommunikasiya xətlərinin açılması, humanitar əlaqələrin genişləndirilməsi və iqtisadi əməkdaşlıq imkanlarının artırılması mühüm əhəmiyyət kəsb edir.

Sülh müqaviləsinin imzalanması region üçün yeni iqtisadi, siyasi, hətta hərbi və mənəvi-mədəni imkanlar yarada bilər. Nəqliyyat marşrutlarının genişlənməsi, ticarət əlaqələrinin inkişafı, Zəngəzur dəhlizinin açılması, Türkiyə ilə Ermənistan arasında sərhədlərin açılması investisiya mühitini yaxşılaşdırır və təhlükəsizlik risklərini azaldır. Tərəflər siyasi iradə nümayiş etdirirlər və gələcəkdə də bu iradəni davam etdirəcəklər. Uzunmüddətli perspektivdə regionun daha sabit və əməkdaşlığa əsaslanan inkişaf mərhələsinə keçməsi mümkündür".

Səh. 2

GÜNÜN FOTOSU...



**39 yaşlı Messinin het-trik sevinci**

GÜNÜN SİTATI

*Vaşinqton münaqişənin həlli çərçivəsində İrana investisiya qoymaq niyyətində deyil*



**Donald Tramp,**
ABŞ prezidenti

KARİKATURA




**Kuboku mən alacam...**

## Dəyişməyən iqtisadi artım

**Akif Nəsirli,**
Liberal İqtisadçılar Mərkəzinin sədri

İqtisadiyyatda dövlət sektorunun dominantlığı, özəl sektorun isə məhdud fəallığı qeyri-neft iqtisadiyyatının genişlənməsini ləngidir.

Səh. 3

STATİSTİKA



**Ötən ay sosial müavinət və təqaüd alanların sayı açıqlanıb. 2026-cı ilin may ayında aylıq sosial müavinət və təqaüd alanların sayı 888 178 nəfər olub.**

Onların 480 601 nəfərini aylıq sosial müavinət, 407 577 nəfərini isə təqaüd alanlar təşkil edib. Qeyd edək ki, 2026-cı ilin aprel ayı ərzində Azərbaycanda 225 448 nəfər şəxs aylıq sosial müavinət, 92 750 nəfər şəxs isə Prezident təqaüdü almışdı.



Səh. 5

# Türkiyə-Fransa rəqabəti: Kiprdən Afrikaya

PREZİDENTİN İŞ GÜNÜ

## Qəbul



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamadeni qəbul edib.**

Prezident İlham Əliyev Donald Trampın ikinci dəfə hakimiyyətə gəlişindən sonra Azərbaycan-ABŞ əlaqələrinin uğurla inkişaf etdiyini vurğuladı. ABŞ Prezidenti ilə şəxsi münasibətlərinin yüksək səviyyədə olduğunu deyən dövlətimizin başçısı Birləşmiş Ştatlara səfərlərini və Donald Trampla görüşlərini, həmçinin Vitse-prezident Cey. Di. Vensin ölkəmizə səfərini məmnunluqla xatırladı, "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanmasını münasibətlərimizin genişləndirilməsi baxımından tarixi rola malik olduğunu qeyd etdi. Söhbət zamanı Abraham Hamadenin ABŞ Konqresində Azadlığa Dəstək Aktına 907-ci düzəlişin ləğvi ilə bağlı irəli sürülmüş qanun layihəsinə həmmüəllif olmasının əhəmiyyətinə toxunuldu. Prezident İlham Əliyev Abraham Hamadenin ölkəmizə səfərinin uğurlu olacağına əminliyini bildirdi. Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edən qonaq ölkəmizin coğrafi baxımdan çox nadir bir məkanda yerləşdiyini dedi. O, həmçinin Azərbaycanda UFC və Formula-1 kimi mötəbər idman yarışlarının keçirildiyini də vurğuladı. Söhbət zamanı Azərbaycan və ABŞ prezidentlərinin strateji tərəfdaşlığımızın dərinləşdirilməsi istiqamətində səylərinə toxunularaq, hər iki liderin dövlətlərarası münasibətlərimizin inkişafına böyük önəm verdikləri qeyd olundu.

Donald Trampın Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasında rolu xüsusi vurğulandı, regional nəqliyyat bağlantılarının inkişafı baxımından TRIPP dəhlizinin yaradacağı imkanlara toxunuldu.

Görüşdə ölkəmizlə ABŞ Konqresi arasında dialoqun möhkəmləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı, iqtisadi-ticari, sərmayə, enerji, təhlükəsizlik, bağlantılar, texnologiya və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi, Azərbaycan-ABŞ tərəfdaşlığının perspektivləri müzakirə olundu.

## 907-ci düzəliş Azərbaycan-ABŞ tərəfdaşlığının səviyyəsi ilə uzlaşmır

**17 iyun tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamadeyi qəbul edib.**

XİN-dən verilən xəbərə görə, görüş zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin hazırkı vəziyyəti və inkişaf perspektivləri, regional və beynəlxalq təhlükəsizlik məsələləri, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiya əlaqələri, eləcə də Cənubi Qafqazda postmünaqişə dövründə mövcud vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov ötən ilin avqustunda Vaşinqtonda keçirilmiş Sammitin ikitərəfli və regional əlaqələrdə əhəmiyyətini vurğulayaraq, sammit çərçivəsində əldə olunmuş tarixi razılaşmaların iki ölkə arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə xidmət etdiyini qeyd edib. Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasının siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji təhlükəsizliyi, təhlükəsizlik kimi sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün mühüm əsas yaratdığı bildirilib. Bununla yanaşı, ilk dəfə olaraq Azərbaycan–ABŞ İqtisadi Əməkdaşlıq Dialoqunun keçirildiyi, ticarət, investisiyalar, enerji, nəqliyyat, rəqəmsal inkişaf və digər sahələri əhatə edən 10 əməkdaşlıq sənədinin imzalandığı diqqətə çatdırılıb.

Görüşdə regionda nəqliyyat-kommunikasiya əlaqələrinin gücləndirilməsinə və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantıların yaradılmasına xidmət edəcək TRIPP layihəsinin reallaşdırılmasının əhəmiyyəti diqqətə çatdırılıb.

Görüş zamanı Azərbaycan-ABŞ münasibətlərinin gələcək inkişaf perspektivləri müzakirə olunarkən, ikitərəfli əməkdaşlığa mehdudiyyətlərin aradan qaldırılmasının əhəmiyyəti vurğulanıb. Bu çərçivədə, ABŞ-ın Azərbaycana dövlət yardımını məhdudlaşdıran 907-ci düzəlişin tamamilə ləğvinin iki ölkə arasında strateji tərəfdaşlığın ruhuna uyğun olacağı, təhlükəsizlik, enerji, nəqliyyat, iqtisadiyyat və regional sabitlik sahələrində əməkdaşlığın daha da genişlənməsinə töhfə verəcəyi qeyd edilib. Bildirilib ki, sözügedən düzəliş öz mahiyyətinə görə köhnəlmiş yanaşmanı əks etdirir və mövcud geosiyasi reallıqlar, eləcə də Azərbaycan-ABŞ tərəfdaşlığının səviyyəsi ilə uzlaşmır.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303). "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "Zaman" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -1500
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC 1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Zəngəzur dəhlizi hansı mərhələdədir?

***44** günlük Vətən müharibəsindən sonra regionda yaranan yeni reallıqların ən mühüm elementlərindən biri Zəngəzur dəhlizi layihəsidir. Son illərdə müxtəlif siyasi maneələrə və beynəlxalq təzyiqlərə baxmayaraq, bu layihə regional nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası istiqamətində strateji təşəbbüs kimi gündəmdə qalmaqdadır. Azərbaycan Zəngəzur dəhlizini regional əməkdaşlıq və iqtisadi inteqrasiya layihəsi kimi təqdim etsə də, bəzi xarici güclər prosesə fərqli prizmadan yanaşırlar.***




> *Zəngəzur dəhlizinin Türk dünyasının inteqrasiyası və Orta Dəhlizin inkişafı baxımından da mühüm strateji əhəmiyyəti var*

> *Azərbaycanın əsas prioritetlərindən biri Naxçıvanla birbaşa quru əlaqənin təmin olunmasıdır*

### Gündəm

Xüsusilə Rusiya və İranın məsələyə münasibəti, onların regiondakı maraqları və təsir imkanları dəhlizin reallaşması ətrafında müzakirələri daha da aktuallaşdırır. Bu şəraitdə əsas sual ondan ibarətdir ki, Zəngəzur dəhlizi artıq geridönməz xarakter alıbmı və layihənin tam reallaşmasına mane ola biləcək amillər nə dərəcədə effektivdir?

■ **Rəşad Bayramov, politoloq:**

- Zəngəzur dəhlizi şübhəsiz ki, Cənubi Qafqazın ən mühüm geosiyasi və iqtisadi layihələrindən biridir. 2020-ci il müharibəsindən sonra regionda yaranmış yeni reallıqlar, nəqliyyat kommunikasiyalarının açılması məsələsini həm logistika layihəsi olaraq, həm də siyasi təsir və regional balans məsələsi kimi ön plana çıxarıb. Hazırkı proseslər göstərir ki, Zəngəzur dəhlizinin reallaşması istiqamətində müəyyən siyasi dinamika formalaşıb. İlk olaraq 8 avqust Vaşinqton görüşündə əldə olunan razılaşma, daha sonra ABŞ və Ermənistan arasında imzalanan və yaxın zamanlarda ratifikasiya olunması gözlənilən sənəd layihənin reallaşması istiqamətində işlərin sürətlənəcəyini ehtimal etməyə imkan verir.

Dəhlizin açılması bizim üçün strateji əhəmiyyət daşıyır. Bu layihə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa nəqliyyat əlaqəsinin yaranmasına imkan verəcək və ölkənin regional tranzit imkanlarını genişləndirəcək. Eyni zamanda, Azərbaycan üçün bu, yalnız nəqliyyat məsələsi deyil, həm də Türk dünyası ilə daha sıx bağlantıların yaradılması baxımından mühüm amildir. Ermənistan üçün isə kommunikasiya xətlərinin açılması iqtisadi təcriddən çıxmaq, yeni tranzit imkanları əldə etmək və regional iqtisadi layihələrə qoşulmaq şansı yarada bilər. Daha geniş perspektivdə isə Zəngəzur dəhlizi Cənubi Qafqazda ticarət, enerji və nəqliyyat inteqrasiyasını gücləndirə bilər. Zəngəzur dəhlizinin Türk dünyasının inteqrasiyası və Orta Dəhlizin inkişafı baxımından da mühüm strateji əhəmiyyəti var. Bu marşrut Asiya ilə Avropanı birləşdirən alternativ nəqliyyat xəttinin güclənməsinə xidmət edəcək və həmçinin Şərq-Qərb ticarət yollarının yenidən formalaşdığı bir dövrdə Cənubi Qafqazın tranzit əhəmiyyətini artıracaq. Zəngəzur dəhlizi layihəsinin əhəmiyyəti və onun meydana gətirəcəyi imkanlar təbii ki, regional və beynəlxalq aktorların da diqqət mərkəzindədir. Rusiya bu məsələyə öz strateji maraqları prizmasından yanaşır. Moskva üçün əsas məsələ regiondakı təsir imkanlarını qorumaq və nəqliyyat kommunikasiyalarının açılmasında söz sahibi olmaqdır. Rusiya uzun illər Cənubi Qafqazda əsas təhlükəsizlik aktorlarından biri olub və dəhliz məsələsində də öz rolunu saxlamağa çalışır.

Xüsusilə regiondakı nəqliyyat marşrutlarının gələcək idarə olunması və təhlükəsizlik mexanizmləri Moskvanın maraq dairəsindədir. Lakin son illərdə regionda yeni aktorların fəallaşması Rusiyanın əvvəlki dominant mövqeyini müəyyən qədər zəiflədib. Elə dəhlizin idarə olunması ilə bağlı ABŞ və Ermənistan arasında əldə olunan razılaşma da bunun bariz sübutudur.

İranın narahatlıqlarına gəldikdə isə onlar əsasən geosiyasi və iqtisadi amillərlə bağlıdır. Tehran hesab edir ki, yeni nəqliyyat reallıqları regiondakı balansı dəyişə və onun Cənubi Qafqazdakı təsir imkanlarına təsir göstərə bilər. Xüsusilə Azərbaycan ilə Naxçıvan arasında yeni bağlantının yaranması və Türkiyənin regiondakı rolunun artması İranın diqqətlə izlədiyi məsələlərdəndir. Bununla belə, İranın layihəyə tam mane olmaq imkanları məhduddur. Çünki regional və beynəlxalq aktorların maraqları bu prosesi artıq daha geniş geosiyasi çərçivəyə daxil edib. Yaxın perspektivdə əsas gözlənti tərəflər arasında texniki və hüquqi məsələlərin həllinin sürətlənməsidir. Sərhəd-keçid mexanizmləri, gömrük prosedurları, təhlükəsizlik məsələləri və infrastrukturun hazırlanması növbəti mərhələnin əsas mövzuları olacaq. Ermənistanın üzərinə düşən öhdəlikləri icra etməsi ilə Zəngəzur dəhlizi tədricən ideya mərhələsindən praktiki icra mərhələsinə keçə bilər. Ümumilikdə isə, Zəngəzur dəhlizi artıq yalnız Azərbaycan-Ermənistan münasibətlərinin mövzusu deyil. Bu layihə Cənubi Qafqazda yeni geosiyasi və iqtisadi düzənin formalaşmasının elementlərindən birinə çevrilib.

■ **Ramil Hüseynov, politoloq:**

- Zəngəzur dəhlizi Cənubi Qafqazda Azərbaycan ilə ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında quru əlaqələrinin qurulmasını nəzərdə tutan mühüm nəqliyyat marşrutudur. Bu layihə təkcə nəqliyyat infrastrukturu deyil, həm də siyasi, iqtisadi və mənəvi baxımdan çoxşaxəli əhəmiyyət daşıyır. Dəhliz regional ticarət və logistika imkanlarının genişlənməsi baxımından xüsusi önəm kəsb edir. Azərbaycanın əsas prioritetlərindən biri Naxçıvanla birbaşa quru əlaqənin təmin olunmasıdır. Bu, regionda iqtisadi inteqrasiyanın gücləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Layihənin reallaşması regionda tranzit imkanlarını genişləndirməklə yanaşı, nəqliyyat xərclərinin azalmasına və iqtisadi gəlirlərin artmasına şərait yaradacaq. Bu prosesdə Türkiyə Türk dünyası ilə əlaqələrin güclənməsinə xüsusi önəm verir.

Bununla yanaşı, İranın layihəyə ehtiyatlı yanaşdığı və regionda nəqliyyat balansında dəyişikliklərdən narahat olduğu qeyd olunur. Bu geosiyasi maraqların təbii ifadəsi kimi qiymətləndirilir.

Rusiya və digər aktorlar üçün də Orta Dəhliz kontekstində bu layihə mühüm əhəmiyyət daşıyır. Zəngəzur dəhlizinin Orta Dəhlizə inteqrasiyası Çin-Avropa yükdaşımaları üçün alternativ marşrutların formalaşmasına imkan yarada bilər. Hazırda proseslər danışıqlar mərhələsindədir. Hüquqi statusla bağlı yekun razılaşma hələ əldə olunmayıb. Bununla belə, layihənin həyata keçirilməsi istiqamətində əsas siyasi və texniki addımlar artıq atılıb. Qarşıdakı mərhələdə təhlükəsizlik zəmanətləri, infrastrukturun tamamlanması və hüquqi bazanın formalaşdırılması əsas prioritetlər olacaq. Bu məsələlər həll olunduqdan sonra Zəngəzur dəhlizi ilə bağlı proseslərin daha da sürətlənəcəyi gözlənilir.

✍ *Tahirə Qafarlı*

# Sülh prosesində səssiz diplomatiya

◂ əvvəli 1-ci səhifədə

■ **Millət vəkili Razi Nurullayev qeyd edir ki, seçkilərdən sonra hakimiyyətin mövqeyi nisbətən möhkəmlənir. Bu, istənilən ölkədə xarici siyasət qərarlarının qəbulunu daha çevik edir. Ermənistan kontekstində bu xüsusilə vacibdir:** "Sülh sazişi kimi həssas qərarlar daxili legitimlik olmadan qəbul edilə bilməz. Yeni hakimiyyət seçkilərdən sonra daha rahat manevr edə, daha cəsarətli addımlar ata bilər. Bu baxımdan müəyyən bir "imkan pəncərəsi" açılır.

Amma "yeni mərhələ" yalnız daxili faktorla müəyyən olunmur. Burada ikinci mühüm məsələ geosiyasi mühitdir. Cənubi Qafqaz böyük güclərin maraqlarının toqquşduğu bölgə olaraq qalır. Qərbin regionda fəallaşması, Rusiyanın təsir imkanlarını qorumağa çalışması və digər regional aktorların maraqları Ermənistanın qərarlarına birbaşa təsir göstərir. Bu isə o deməkdir ki, seçkilərdən sonra yaranan fürsət xarici təsirlər səbəbindən ya sürətlənə, ya da ləngiyə bilər.

Üçüncü vacib məqam isə Ermənistan cəmiyyətinin psixoloji və siyasi vəziyyətidir. Seçki nəticələri hakimiyyətə mandat versə də, cəmiyyətdə vahid mövqe yoxdur. Revanşist düşüncələr, keçmişlə bağlı emosional yanaşmalar hələ də güclüdür. Bu isə o deməkdir ki, hakimiyyət hər addımında daxili təzyiqləri də nəzərə almağa məcburdur. Yəni yeni mərhələ başlasa belə, bu, sabit və düzxətli proses olmayacaq. Digər tərəfdən, Azərbaycan-Ermənistan münasibətlərində artıq əvvəlki illərlə müqayisədə daha real gündəlik formalaşıb. Artıq müzakirə mövzusu münaqişənin özü deyil, onun nəticələrinin hüquqi və siyasi çərçivədə tənzimlənməsidir. Bu isə



həqiqətən də keyfiyyətcə fərqli mərhələnin elementidir. Nəticə etibarilə, "yeni mərhələ" ifadəsini belə dəqiqləşdirmək daha doğru olar: bu, imkanların yarandığı, lakin nəticələrin hələ təmin olunmadığı keçid mərhələsidir. Yəni proses irəli gedə bilər, amma eyni zamanda hər an dayanmaq və ya geriyə dönüş riski də qalır". Yekun sülh sazişinin imzalanmasına mane olan əsas amillərə gəldikdə isə, millət vəkili qeyd edir ki, hazırda əsas problemlər üç istiqamətdə cəmlənir: siyasi iradə, hüquqi baza və təhlükəsizlik təminatları.

Hüquqi müstəvidə ən ciddi məsələlərdən biri Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarına dolayı istinadların qalmasıdır. Bu məsələ həll olunmadan imzalanacaq hər hansı saziş uzunmüddətli və dayanıqlı hesab edilə bilməz. Digər tərəfdən, sərhədlərin delimitasiyası və demarkasiyası, kommunikasiyaların açılması, eləcə də qarşılıqlı öhdəliklərin icra mexanizmləri də hələ tam razılaşdırılmayıb. Yəni sənədin imzalanması üçün hüquqi baza hələ tam formalaşmayıb:

"Bu kontekstdə Ermənistan Konstitusiyası məsələsi təkcə hüquqi detal deyil, həm də siyasi etimadın əsas göstəricilərindən biridir. Çünki əgər ölkənin ali hüquqi sənədində dolayı da olsa Azərbaycana qarşı ərazi iddiaları qalırsa, bu, imzalanacaq sülh müqaviləsinin gələcəkdə sual altına düşməsi riskini yaradır. Azərbaycan tərəfinin mövqeyi ondan ibarətdir ki, sülh sazişi yalnız mövcud reallığı və qarşılıqlı ərazi bütövlüyünü tam şəkildə əks etdirdiyi halda dayanıqlı ola bilər. Əks halda, hüquqi ziddiyyətlər gələcəkdə yenidən siyasi gərginlik üçün zəmin yarada bilər. Buna görə də Konstitusiya məsələsi texniki deyil, strateji əhəmiyyət daşıyan və yekun razılaşmanın mahiyyətinə birbaşa təsir edən əsas düyün nöqtələrindən biri kimi çıxış edir".

Ermənistanda revanşist qüvvələrin fəaliyyətinin sülh prosesinə təsirinə də toxunan R.Nurullayev bildirir ki, bu yalnız siyasi rəqabət kimi deyil, daha dərin - ideoloji və psixoloji faktor kimi yanaşmağı tələb edir: "Bu qüvvələr cəmiyyətdə məğlubiyyət sindromu üzərindən mobilizasiya aparır, keçmiş status-kvonun bərpası mümkün kimi təqdim edir və beləliklə, realist sülh gündəliyini zəiflədirlər. Onların ritorikası daha çox emosional xarakter daşıyır və bu da rasional qərarların qəbulunu çətinləşdirir. Nəticədə hakimiyyət sülh istiqamətində addım atmaq istədikdə daxildə ciddi təzyiqlərlə və ittihamlarla üzləşir.

Bu qüvvələrin əsas riski ondadır ki, onlar yalnız siyasi bəyanatlarla kifayətlənmir, eyni zamanda ictimai rəyə təsir göstərərək qərar qəbul edənlərin manevr imkanlarını daraldırlar. Hər hansı kompromis addım dərhal "təslimçilik" kimi təqdim olunur və bu da cəmiyyətdə parçalanmanı dərinləşdirir. Belə mühitdə hökumət ya daha ehtiyatlı davranmağa məcbur qalır, ya da qərarları gecikdirir. Bu isə sülh prosesinin tempinə birbaşa mənfi təsir göstərir və əldə olunan razılaşmaların dayanıqlığını sual altına alır.

Digər tərəfdən, revanşist yanaşmalar yalnız daxili siyasi risk deyil, həm də təhlükəsizlik baxımından qeyri-sabitlik yaradır. Radikal ritorika sərhəddə gərginliyi artıra, təxribat ehtimalını yüksəldə və tərəflər arasında formalaşmaqda olan minimal etimadı zədələyə bilər. Buna görə də davamlı sülh üçün təkcə dövlətlərarası razılaşma kifayət deyil, eyni zamanda, Ermənistan daxilində daha realist və məsuliyyətli siyasi mühitin formalaşması da vacib şərtdir".

✍ *Tahirə Qafarlı*

# Şuşa Bəyannaməsinin əhəmiyyəti daha da artıb

***2021-ci il iyunun 15-də Azərbaycan və Türkiyə liderləri tərəfindən imzalanan Şuşa Bəyannaməsi iki qardaş ölkə arasında münasibətləri strateji tərəfdaşlıq səviyyəsindən müttəfiqlik mərhələsinə yüksəldən tarixi sənəd kimi qiymətləndirilir. Beş il ərzində bu Bəyannamə təkcə Bakı-Ankara münasibətlərinin inkişafına deyil, həm də Cənubi Qafqazda yeni geosiyasi reallıqların formalaşmasına mühüm təsir göstərib. Hərbi təhlükəsizlik, enerji, nəqliyyat, iqtisadiyyat və türk dünyasının inteqrasiyası istiqamətində əldə olunan nəticələr Şuşa Bəyannaməsinin strateji əhəmiyyətini daha da artırıb. Müsahibimiz Milli Məclisin deputatı Fazil Mustafadır:***



**Fazil Mustafa,**
Milli Məclisin deputatı

## Müsahib

***- Şuşa Bəyannaməsinin imzalanmasından ötən beş ili necə qiymətləndirirsiniz?***

- Şuşa Bəyannaməsinin imzalanması çox önəmli və tarixi bir addım idi. Vətən müharibəsində əldə olunan qələbəyə baxmayaraq, regionda müəyyən təhlükəsizlik riskləri qalmaqda davam edirdi. Qarabağ məsələsi Azərbaycanın xeyrinə həll olunsa da, müəyyən ərazilərdə Rusiya sülhməramlılarının mövcudluğu, eləcə də bölgədə müxtəlif xarici təsir amillərinin qalması yeni geosiyasi vəziyyət yaradırdı.

Belə bir şəraitdə Şuşa Bəyannaməsi Azərbaycan üçün əlavə təhlükəsizlik təminatı rolunu oynadı. Bu sənəd həm Azərbaycan cəmiyyətinə, həm də beynəlxalq ictimaiyyətə göstərdi ki, Türkiyə və Azərbaycan strateji məsələlərdə vahid mövqedən çıxış edir və regionun gələcəyi ilə bağlı ortaq baxışlara malikdir.

Eyni zamanda, Bəyannamə iki ölkə arasında münasibətləri keyfiyyətcə yeni mərhələyə çıxardı. Əgər əvvəllər strateji tərəfdaşlıqdan danışılırdısa, artıq müttəfiqlik münasibətləri hüquqi və siyasi əsaslarla təsbit olundu. Sonrakı illərdə baş verən proseslər də göstərdi ki, bu sənəd sadəcə siyasi bəyanat deyil, real nəticələr doğuran və regionun gələcəyinə təsir edən mühüm strateji sənəddir.

***- Bəyannamənin qəbulundan sonra iki ölkə arasında hərbi, siyasi və iqtisadi əməkdaşlıq sahələrində hansı mühüm nəticələr əldə olunub?***

- Əslində, Azərbaycan və Türkiyə arasında əməkdaşlığın möhkəm təməli Şuşa Bəyannaməsindən əvvəl də mövcud idi. Lakin bu sənəd həmin əməkdaşlığı daha sistemli və institusional xarakterə çevirdi. Birgə hərbi təlimlərin intensivləşməsi, müdafiə sənayesi sahəsində əməkdaşlığın genişlənməsi və ordular arasında koordinasiyanın güclənməsi bunun ən mühüm göstəriciləridir. Bəyannamədən sonra hər kəs üçün aydın oldu ki, Azərbaycana qarşı yönələn hər hansı təhdid və ya təcavüz cəhdi təkcə Azərbaycanla deyil, eyni zamanda Türkiyə ilə münasibətlər kontekstində də qiymətləndiriləcək. Bu isə bölgədə yeni təhlükəsizlik balansının formalaşmasına ciddi təsir göstərdi.

Siyasi müstəvidə də iki ölkənin beynəlxalq təşkilatlarda və regional platformalarda daha koordinasiyalı fəaliyyət göstərdiyini müşahidə etdik. İqtisadi sahədə isə enerji layihələri, nəqliyyat dəhlizləri, logistika imkanlarının genişləndirilməsi və qarşılıqlı investisiya əlaqələrinin inkişafı yeni mərhələyə qədəm qoydu.




***- Şuşa Bəyannaməsi Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqlara və regional təhlükəsizlik mühitinə necə təsir göstərib?***

- Şuşa Bəyannaməsi regionda güc balansının dəyişdiyini və Azərbaycanın artıq yeni geosiyasi reallıqlar yaradan əsas aktorlardan birinə çevrildiyini nümayiş etdirdi. Bu sənəd Cənubi Qafqazın təhlükəsizlik arxitekturasına birbaşa təsir göstərdi və regionun gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən amillərdən biri oldu.

Xüsusilə Ermənistanda bu sənədin yaratdığı təsir nəzərəçarpandır. Ermənistan cəmiyyətində artıq Azərbaycanla hərbi qarşıdurmanın əvvəlki dövrlərdə olduğu kimi nəticə verməyəcəyi anlayışı formalaşmağa başladı. İnsanlar başa düşdülər ki, Azərbaycanla mümkün qarşıdurma, eyni zamanda, Türkiyənin də iştirak etdiyi daha geniş təhlükəsizlik müstəvisində qiymətləndiriləcək. Bu reallıq Ermənistanda militarist düşüncənin müəyyən qədər zəifləməsinə və daha praqmatik yanaşmaların ön plana çıxmasına təsir göstərdi. Son seçkilərdə radikal və revanşist qüvvələrin zəif nəticə göstərməsi də bu dəyişən reallıqların nəticələrindən biri kimi qiymətləndirilə bilər.

*Şuşa Bəyannaməsi Türk dövlətləri arasındakı münasibətlər sisteminə də transfer olunmalı və yeni mərhələyə keçməlidir*

***- Azərbaycan-Türkiyə hərbi müttəfiqliyinin daha da gücləndirilməsi üçün yaxın perspektivdə hansı addımların atılmasını vacib hesab edirsiniz?***

- Bu istiqamətdə artıq müəyyən edilmiş fəaliyyət proqramları və mexanizmlər mövcuddur. Birgə hökumətlərarası komissiyalar, müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq mexanizmləri, hərbi təhsil və müdafiə sənayesi sahəsində ortaq layihələr davam etdirilir.

Hesab edirəm ki, gələcəkdə texnologiya transferi, müdafiə sənayesində ortaq istehsal, kadr hazırlığı və təhlükəsizlik sahəsində koordinasiyanın daha da gücləndirilməsi vacib olacaq. Müasir dövrdə təhlükəsizlik yalnız hərbi güclə ölçülmür.

Kibertəhlükəsizlik, informasiya təhlükəsizliyi və strateji kommunikasiya kimi sahələr də əməkdaşlığın əsas istiqamətlərindən birinə çevrilməlidir. Türkiyə-Azərbaycan müttəfiqliyi regionun sabitliyinə xidmət edən əsas amillərdən biri kimi qəbul olunur və bu kursun davam etdirilməsi vacibdir.

***- Şuşa Bəyannaməsinin türk dövlətləri arasında əməkdaşlığın dərinləşməsinə və Türk dünyasının inteqrasiyasına təsiri barədə fikirləriniz necədir?***

- Hesab edirəm, Şuşa Bəyannaməsinin ən mühüm nəticələrindən biri onun türk dünyası üçün uğurlu əməkdaşlıq modeli yaratmasıdır. Azərbaycan və Türkiyənin ortaya qoyduğu birlik nümunəsi digər türk dövlətləri üçün də maraqlı və cəlbedici oldu.

Son illərdə Türk Dövlətləri Təşkilatı çərçivəsində müşahidə olunan fəallıq, iqtisadi, nəqliyyat və humanitar sahələrdə əməkdaşlığın genişlənməsi müəyyən mənada bu modelin təsiri ilə bağlıdır. Orta Asiya türk dövlətləri ilə Azərbaycan və Türkiyə arasında əməkdaşlıq yeni məzmun qazanmağa başlayıb.

Qarabağın yenidənqurulmasında türk dövlətlərinin iştirak imkanları, nəqliyyat layihələri, enerji əməkdaşlığı və ortaq iqtisadi təşəbbüslər inteqrasiyanın daha da dərinləşməsinə şərait yaradır. Parlamentlərarası və hökumətlərarası səviyyədə intensiv əlaqələrin qurulması da göstərir ki, Türk dünyasının inteqrasiyası artıq ideya mərhələsini keçərək praktik müstəviyə daxil olur.

***- Hazırkı beynəlxalq çağırışlar fonunda Şuşa Bəyannaməsinin əhəmiyyəti əvvəlki dövrlərlə müqayisədə artıbmı və bu sənəd regionun gələcəyi baxımından hansı strateji üstünlüklər yaradır?***

- Hesab edirəm, son illərdə dünyada baş verən hadisələr Şuşa Bəyannaməsinin əhəmiyyətini daha da artırıb. Müxtəlif regionlarda müharibələrin və geosiyasi qarşıdurmaların davam etməsi təhlükəsizlik məsələlərinin dövlətlər üçün nə qədər vacib olduğunu bir daha göstərdi.

Azərbaycanın regionda sabitliyi qorumağa nail olması və müxtəlif risklərdən uzaq qalması da müəyyən mənada bu müttəfiqlik modelinin uğurlu nəticələrindən biridir. Şuşa Bəyannaməsi Azərbaycanın təhlükəsizlik imkanlarını gücləndirməklə yanaşı, ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsinə də xidmət edib.

Azərbaycan artıq zəif və ya müdafiəsiz tərəf kimi deyil, regional proseslərə təsir edə bilən güclü dövlət kimi qəbul olunur. Bu da bir çox ölkələrin Azərbaycanla bağlı siyasətində dəyişikliklərə səbəb olub.

***- Qarşıdakı illərdə Şuşa Bəyannaməsinin icrası çərçivəsində hansı yeni təşəbbüslərin və layihələrin həyata keçirilməsi gözlənilir?***

- Düşünürəm, qarşıdakı dövrdə əsas diqqət Türk dünyasının inteqrasiyasının daha da dərinləşdirilməsinə yönələcək. Yeni geosiyasi çağırışlar ortaya çıxdıqca əməkdaşlığın da yeni formaları yaranacaq və bu, Şuşa Bəyannaməsinin inkişafına əlavə imkanlar yaradacaq.

Türk dövlətləri ilə imzalanan yeni sənədlər, Qarabağda birgə infrastruktur layihələrinin həyata keçirilməsi, iqtisadi əməkdaşlığın genişləndirilməsi və siyasi həmrəyliyin gücləndirilməsi bu istiqamətdə əsas prioritetlərdən olacaq.

Hesab edirəm ki, Şuşa Bəyannaməsinin yaratdığı əməkdaşlıq modeli artıq yalnız Azərbaycan və Türkiyə arasındakı münasibətlərlə məhdudlaşmamalıdır. Bu model türk dövlətləri arasındakı münasibətlər sisteminə də transfer olunmalı, ortaq maraqlar əsasında daha geniş inteqrasiya mexanizmlərinin formalaşmasına xidmət etməlidir. Məhz bu istiqamətdə atılacaq addımlar gələcək dövrün əsas strateji hədəflərindən biri olacaq.

✍ ***Tahirə Qafarlı***



İqtisadiyyat

# Dəyişməyən iqtisadi artım

***2026-cı ilin yanvar-may aylarında Azərbaycanda ümumi daxili məhsul 51 milyard 783,8 milyon manat səviyyəsində formalaşıb. Rəsmi statistikaya görə, iqtisadiyyatın ümumi real artımı əvvəlki ilin eyni dövrü ilə müqayisədə demək olar ki, dəyişməz qalıb. Bu isə artıq ardıcıl ikinci ildir ki, müşahidə olunan zəif dinamikanın davam etdiyini göstərir. Rəqəmlərə daha diqqətlə baxdıqda struktur mənzərə daha aydın görünür. Neft-qaz sektorunda 16 milyard 125,4 milyon manatlıq əlavə dəyər yaranıb, lakin burada 1 faiz azalma qeydə alınıb.***

Qeyri-neft-qaz sektorunda isə 35 milyard 658,4 milyon manatlıq göstərici ilə cüzi - 0,4 faizlik artım baş verib. Ümumi mənzərə isə göstərir ki, qeyri-neft sektorunun artımı neft sektorundakı azalmanı kompensasiya etmək gücündə deyil. Mütəxəssislər hesab edirlər ki, iqtisadi artımın bu qədər zəif qalmasının əsas səbəblərindən biri struktur asılılıqdır. Azərbaycan iqtisadiyyatı hələ də neft-qaz sektorunun təsirindən tam çıxmayıb. Bu sahədə hasilatın təbii şəkildə azalması, köhnə yataqlarda məhsuldarlığın enməsi və yeni investisiya dalğasının məhdudluğu ümumi iqtisadi tempə birbaşa təsir edir. Neft hasilatında kiçik azalma belə ümumi ÜDM-də hiss olunan boşluq yaradır, çünki iqtisadiyyatın baza yükü hələ də bu sektorda qalır. Digər tərəfdən, qeyri-neft sektoru artım göstərsə də, bu artımın miqyası iqtisadi transformasiya üçün yetərli deyil. Burada əsas problem məhsuldarlığın aşağı olmasıdır. Bir çox sahələrdə texnoloji yenilənmə zəif gedir, istehsal həcmi artır, amma əlavə dəyər yaratma qabiliyyəti eyni sürətlə yüksəlmir. Kənd təsərrüfatı, emal sənayesi və xidmət sektorunda potensial olsa da, bu potensial tam aktivləşdirilmir. Nəticədə iqtisadiyyat “artır, amma güclənmir” vəziyyətində qalır. Buna xarici faktorlar da təsir edir. Qlobal iqtisadiyyatda qeyri-sabitlik, enerji qiymətlərində dalğalanmalar, logistika xərclərinin artması və əsas ticarət tərəfdaşlarında zəif artım Azərbaycan ixracına və istehsal zəncirlərinə dolayı təzyiq göstərir. Xüsusilə regional ticarət axınlarındakı dəyişikliklər qeyri-neft sektorunun genişlənmə sürətini məhdudlaşdırır.

İqtisadi artımın zəifləməsində institusional amillər də az rol oynamır. Biznes mühitində proqnozlaşdırma və sabitlik məsələləri, maliyyəyə çıxışın çətinliyi, innovasiya və tədqiqat xərclərinin aşağı olması, həmçinin əmək bazarında bacarıq uyğunsuzluğu iqtisadiyyatın potensial artımını məhdudlaşdıran əsas faktorlar kimi çıxış edir. Xüsusilə kiçik və orta bizneslərin məhsuldarlıq problemi ümumi dinamikanı aşağı saxlayan mühüm elementdir.

Ekspertlər hesab edirlər ki, bu mənzərədən çıxış yolu təkcə artımı artırmaq deyil, artımın keyfiyyətini dəyişməkdir. Qeyri-neft sektorunda sadəcə genişlənmə deyil, struktur transformasiya baş verməlidir. Emal sənayesi, yüksək əlavə dəyərli istehsal və ixrac yönümlü sahələr daha sürətli inkişaf etməlidir. Eyni zamanda iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi kimi məhsuldarlıq ön plana çıxmalıdır. Bu isə texnoloji modernizasiya və innovasiyaya əsaslanan inkişaf modeli tələb edir.

İnvestisiya mühitinin gücləndirilməsi də həlledici rol oynayır. Yerli və xarici investisiyaların daha çox real sektorun inkişafına yönəlməsi, xüsusilə sənaye və kənd təsərrüfatında kapital axınının artması iqtisadi dinamikanı dəyişə bilər. Bununla paralel olaraq insan kapitalına investisiya artırılmalı, təhsil sistemi əmək bazarının real tələblərinə uyğunlaşdırılmalıdır. Uzunmüddətli perspektivdə isə əsas məqsəd iqtisadiyyatın “stabil, amma zəif artım” mərhələsindən çıxaraq daha yüksək məhsuldarlığa əsaslanan inkişaf modelinə keçməsi olmalıdır. Əks halda, ÜDM artımı müəyyən həddə sabitləşir, amma iqtisadi strukturda ciddi keyfiyyət sıçrayışı baş vermir.

**■ Mövzu ilə bağlı Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli də Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) artmamasını bir sıra struktur və makroiqtisadi səbəblərlə izah edib.**

Onun fikrincə, 2025-ci ilin yanvar-may dövründə ÜDM-in nominal həcmi 51,8 milyard manata çatsa da, iqtisadi artımın faktiki olaraq sıfıra yaxın qalması ilk baxışda ziddiyyətli görünür. Çünki həmin dövrdə dünya bazarında neft qiymətləri yüksəlib və Azərbaycanın ixrac gəlirlərinin əsas hissəsi hələ də neft-qaz sektorundan formalaşır. Lakin bu artım real iqtisadi genişlənməyə avtomatik çevrilmir.

A.Nəsirli vurğulayıb ki, ÜDM qiymətləri deyil, istehsal olunan məhsul və xidmətlərin fiziki həcmini ölçür. Buna görə də neftin bahalaşması iqtisadi artım demək deyil. Əgər hasilat həcmi azalırsa və ya dəyişmirsə, qiymət artımı yalnız gəlirləri artırır, real istehsal isə sabit qalır.

İqtisadçının fikrincə, neft qiymətlərinin ÜDM-ə təsiri əvvəlki illərlə müqayisədə də zəifləyib. Bunun əsas səbəbi neft gəlirlərinin böyük hissəsinin Dövlət Neft Fonduna yönəldilməsi və bu vəsaitlərin iqtisadiyyata birbaşa deyil, mərhələli şəkildə daxil olmasıdır. Nəticədə qısa müddətli qiymət artımları ÜDM statistikasında dərhal yüksək artım kimi görünmür. Qeyri-neft sektoruna gəldikdə isə A.Nəsirli burada da zəif dinamikanı əsas problem kimi göstərir. Cəmi 0,4 faizlik artım iqtisadiyyatın alternativ inkişaf mühərriklərinin yetərli gücdə olmadığını ortaya qoyur. Halbuki müasir iqtisadi modeldə artımın əsas daşıyıcıları sənaye, kənd təsərrüfatı, nəqliyyat, logistika, turizm, informasiya texnologiyaları və xidmət sahələridir. Azərbaycanda isə bu sektorların bir çoxunda artım var, lakin bu artım iqtisadi sıçrayış yaratmaq üçün kifayət etmir.

*İqtisadiyyatda dövlət sektorunun dominantlığı, özəl sektorun isə məhdud fəallığı qeyri-neft iqtisadiyyatının genişlənməsini ləngidir*

Nəsirli xüsusilə investisiya strukturuna diqqət çəkir. Onun fikrincə, iqtisadiyyatda dövlət sektorunun dominantlığı, özəl sektorun isə məhdud fəallığı qeyri-neft iqtisadiyyatının genişlənməsini ləngidir. Bununla yanaşı, məhsuldarlığın aşağı səviyyədə qalması da iqtisadi artımın keyfiyyətini zəiflədir. Nəticədə iqtisadiyyat genişlənir, lakin dərinləşmir və yüksək əlavə dəyər yaradan model formalaşmır. İqtisadçı Azərbaycanın regional müqayisədə geridə qalmasını da qeyd edib. Gürcüstanda turizm və xidmət sektorunun bərpası, logistika imkanlarının genişlənməsi iqtisadi dinamikanı gücləndirib. Ekspert qeyd edir ki, uzunmüddətli iqtisadi artım artıq neft qiymətlərindən deyil, qeyri-neft sektorunun rəqabət qabiliyyətindən və iqtisadi diversifikasiyanın dərinliyindən asılıdır.

✍ ***Sevinc***

# Yeni təmayül tədris modeli

## Layihə

***Azərbaycanda təhsil sahəsində son illər həyata keçirilən islahatlar arasında diqqət çəkən istiqamətlərdən biri də tam orta təhsil səviyyəsində tətbiq olunan yeni təmayül tədris modelidir. 2026-2027-ci tədris ili üçün bu model üzrə şagird qəbulunun elan edilməsi mövzunu yenidən gündəmə gətirib. Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin (MÜTDA) məlumatına görə, yeni təmayül tədris modeli 10 və 11-ci sinifləri əhatə edir. Layihənin əsas ideyası şagirdlərin ali təhsil müəssisələrinə qəbul üçün lazım olan bilik və bacarıqları məktəb daxilində əldə etmələrinə şərait yaratmaqdır.***



Model çərçivəsində ali məktəblərə qəbul tələblərinə uyğun xüsusi tədris planları hazırlanır, müəyyən fənlər üzrə dərs saatları artırılır və proqramlar dərinləşdirilmiş şəkildə tədris olunur. Beləliklə, şagirdlərin əlavə hazırlıq kurslarına və repetitor xidmətlərinə ehtiyacının minimuma endirilməsi hədəflənir.

### Hədəf 100 məktəb

**Hazırda yeni təmayül tədris modeli ölkənin 14 təhsil müəssisəsində tətbiq olunur. Cari tədris ilində layihə üzrə X siniflərdə 1178, XI siniflərdə isə 406 nəfər olmaqla ümumilikdə 1584 şagird təhsil alıb. Tədris prosesinə xüsusi meyarlarla seçilmiş 263 müəllim cəlb olunub.**

Aparılan monitorinqlərin nəticələri layihənin müəyyən uğurlar əldə etdiyini göstərir. Təhlillərə əsasən, şagirdlərin davamiyyət göstəriciləri əksər məktəblərdə 95-100 faiz arasında dəyişib. Buraxılış imtahanlarının nəticələri də diqqət çəkir. Yeni model üzrə təhsil alan şagirdlərin orta bal göstəricisi fəaliyyət göstərdikləri şəhərlərin ümumi orta nəticələrini üstələyib. Eyni zamanda, aşağı nəticə göstərən şagirdlərin sayı da minimum səviyyəyə enib. Bu göstəricilər layihənin genişləndirilməsi barədə qərarın qəbul olunmasına səbəb olub. MÜTDA əldə olunan nəticələri nəzərə alaraq yeni təmayül tədris modelinin tətbiq olunduğu məktəblərin sayının mərhələli şəkildə artırılmasını planlaşdırır. Məqsəd yaxın illərdə bu modelin ölkə üzrə 100 məktəbdə tətbiq edilməsidir. Bu isə o deməkdir ki, gələcəkdə daha çox şagird ali məktəbə hazırlıq imkanlarını birbaşa məktəb daxilində əldə edə biləcək.

### Repetitor bazarına təsir edə bilərmi?

**Azərbaycanda uzun illərdir ki, ali məktəblərə qəbul hazırlığında repetitor institutu mühüm rol oynayır. Bir çox ailələr övladlarının yüksək nəticə əldə etməsi üçün əlavə maliyyə xərcləri ilə üzləşirlər.**

Yeni modelin uğurlu tətbiqi vəziyyəti müəyyən qədər dəyişə bilər. Əgər məktəblərdə qəbul proqramına uyğun keyfiyyətli və sistemli tədris təşkil olunarsa, valideynlərin repetitorlara ayırdığı vəsait azalacaq. Bu, xüsusilə sosial vəziyyəti zəif olan ailələr üçün mühüm üstünlük hesab olunur. Bununla belə, ekspertlər bildirirlər ki, layihənin real təsiri yalnız ali məktəblərə qəbul nəticələri tam şəkildə təhlil edildikdən sonra məlum olacaq. Ekspertlər modelin genişləndirilməsi ilə yanaşı, bir sıra məsələlərin həllini də vacib sayırlar. İlk növbədə, yüksək peşəkarlığa malik müəllim kadrlarının seçilməsi və hazırlanması ön plana çıxır. Çünki layihənin uğuru birbaşa müəllimlərin peşəkarlığından asılıdır. Digər mühüm məsələ bölgələr arasında keyfiyyət fərqinin yaranmamasıdır. Layihənin yalnız iri şəhərlərdə deyil, rayon və kənd məktəblərində də eyni səviyyədə həyata keçirilməsi vacib hesab olunur. Bundan başqa, şagird seçim meyarlarının şəffaflığı və tədris prosesinin davamlı monitorinqi də diqqət mərkəzində saxlanılmalıdır.

### Yeni məktəb modeli formalaşır

**Təhsil sistemində uzun illər mövcud olan əsas problemlərdən biri məktəbin ali məktəbə hazırlıq missiyasını tam yerinə yetirə bilməməsi idi. Nəticədə şagirdlərin böyük hissəsi əlavə hazırlıq kurslarına və repetitorlara üz tuturdu.**

Yeni təmayül tədris modeli məhz bu boşluğu doldurmağa hesablanıb. İlk nəticələr layihənin müəyyən müsbət təsirlər verdiyini göstərsə də, onun ölkə üzrə geniş tətbiqindən sonra daha aydın mənzərə formalaşacaq. Əgər model gözlənilən nəticələri doğruldarsa, bu, Azərbaycan təhsil sistemində məktəbin rolunu yenidən müəyyənləşdirən və ali təhsilə hazırlıq prosesində yeni mərhələ yaradan islahatlardan biri kimi tarixə düşə bilər.

Elm və təhsil naziri Emin Əmrullayev də yeni təmayül modelinin əsas məqsədlərindən birinin şagirdləri daha keyfiyyətli müəllim heyəti ilə təmin etmək olduğunu bildirib. Nazirin sözlərinə görə, layihənin mahiyyəti bölgələrin ən güclü pedaqoqlarını müəyyən məktəblərdə cəmləşdirərək 10 və 11-ci sinif şagirdlərinin ali təhsil müəssisələrinə daha sistemli hazırlanmasına şərait yaratmaqdır.

"İstəyirik bölgənin ən bacarıqlı müəllimlərini bir neçə məktəbə toplayaraq 10 və 11-ci sinif şagirdlərinin ali təhsil müəssisələrinə hazırlığını təmin edək", - deyə nazir jurnalistlərə açıqlamasında bildirib. E. Əmrullayev qeyd edib ki, bu proses tam orta təhsil modelinin formalaşdırılması istiqamətində atılan ilk addımlardandır və sistemin tam oturuşması üçün bir neçə ilə ehtiyac var. Yeni yanaşmaya əsasən, şagirdlər 9-cu sinfə qədər ümumi təhsil aldıqları məktəbdə oxuyacaq, daha sonra isə maraq və ixtisas istiqamətlərinə uyğun olaraq təmayül məktəblərində təhsillərini davam etdirə biləcəklər. Nazir hesab edir ki, bu model ailələrin üzərinə düşən maliyyə yükünü də müəyyən qədər azalda bilər. Təmayül məktəblərində dərs deyən müəllimlər xüsusi seçim əsasında müəyyənləşdiriləcək və şagirdlər ali məktəbə hazırlıq üçün daha keyfiyyətli tədris imkanları əldə edəcəklər.

Bununla yanaşı, nazir vurğulayıb ki, valideynlərin övladlarını əlavə hazırlıq kurslarına yönləndirmək istəyi olarsa, bu da onların seçim hüququ olaraq qalacaq.

### Valideynlərin əlavə hazırlıq xərcləri azala bilər

**■ Mövzu ilə bağlı təhsil məsələləri üzrə ekspert Məzahir Məmmədli hesab edir ki, ictimaiyyətə yeni təqdim olunan təmayül tədris modeli əslində yeni təşəbbüs deyil və onun tətbiqinə artıq bir neçə il əvvəl başlanılıb.**

Ekspertin sözlərinə görə, layihə hazırda pilot mərhələdən keçərək özünün ilk nəticələrini göstərməkdədir."Əslində bu təşəbbüs çoxdan vardı və artıq iki ildir təmayül tədris modelinin reallaşdırılmasına başlanılıb. Nəticələr də müəyyən istiqamətlər üzrə bəhrə verib", - deyə o bildirib.

M. Məmmədli hesab edir ki, layihənin arxasında duran əsas ideya cəmiyyətdə formalaşmış "ali məktəbə yalnız repetitor vasitəsilə qəbul olmaq mümkündür" stereotipini dəyişməkdir. Onun fikrincə, uzun illər ərzində orta məktəblə ali məktəbə hazırlıq prosesi arasında müəyyən boşluq yaranıb və valideynlərin əksəriyyəti övladlarının uğurlu nəticə əldə etməsi üçün əlavə hazırlıq kurslarına üz tutmağa məcbur qalıb.

"Layihəni həyata keçirməkdə məqsəd insanları həqiqətən də repetitorsuz ümumtəhsil məktəblərində oxuyub ali təhsil müəssisələrinə qəbul olmağın mümkünlüyünə inandırmaq, bu barədə yeni düşüncə formalaşdırmaqdır", - deyə ekspert bildirir. O qeyd edir ki, əgər məktəblərdə qəbul proqramına uyğun keyfiyyətli tədris təşkil olunarsa, şagirdlərin böyük hissəsi əlavə hazırlıq xərclərindən qurtula bilər. Bu isə həm ailələrin maliyyə yükünün azalmasına, həm də təhsildə imkan bərabərliyinin güclənməsinə xidmət edər. Ekspert xatırladıb ki, Azərbaycanda ixtisaslaşmış və yüksək nəticələr göstərən təmayüllü məktəblər yeni anlayış deyil. Sovet dövründən başlayaraq, daha sonra isə müstəqillik illərində müəyyən istiqamətlər üzrə ixtisaslaşmış liseylər fəaliyyət göstərib və uğurlu nəticələr əldə edib.

M. Məmmədli nümunə olaraq Gəncədə fəaliyyət göstərən fizika-riyaziyyat və informatika təmayüllü liseyləri göstərib. Onun sözlərinə görə, həmin təhsil müəssisələrinin məzunları uzun illər ərzində ali məktəblərə qəbul göstəricilərinə görə ölkənin ən qabaqcıl şagirdləri sırasında yer alıblar. "Buna qədər də belə məktəblər vardı. Məsələn, Gəncədə fizika, riyaziyyat və informatika təmayüllü lisey fəaliyyət göstərirdi. Həmin liseyin məzunları ali təhsil müəssisələrinə qəbulda çox yüksək nəticələr göstərirdilər", - deyə ekspert bildirib.

Onun fikrincə, hazırda həyata keçirilən yeni təmayül modeli də məhz həmin uğurlu təcrübənin müasir şəraitə uyğunlaşdırılmış formasıdır. M. Məmmədli hesab edir ki, yaxın perspektivdə repetitorluğun tamamilə aradan qalxacağını gözləmək real deyil. Ali məktəblərə qəbul üzrə rəqabət hələ də yüksək olaraq qalır və bəzi valideynlər əlavə hazırlığa üstünlük verməyə davam edəcəklər. Bununla belə, ekspert hesab edir ki, təmayül siniflərinin genişləndirilməsi repetitor xidmətlərindən asılılığı əhəmiyyətli dərəcədə azalda bilər. "Hazırda mövcud olan uğurlu məktəb və liseylərin bazasında belə təmayüllü siniflərin formalaşdırılması repetitorluqdan tam olmasa da, qismən xilas olmaq imkanları yaradır", - deyə o vurğulayır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

*"Layihənin arxasında duran əsas ideya cəmiyyətdə formalaşmış "ali məktəbə yalnız repetitor vasitəsilə qəbul olmaq mümkündür" stereotipini dəyişməkdir*

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Azərbaycanın iqtisadiyyatında şaxələndirmə prioritet olaraq qalır və qeyri-neft sektorunda ciddi artım müşahidə olunur. Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib. "2021-2025-ci illərdə qeyri-neft və qaz iqtisadiyyatının orta illik artımı 6 faiz təşkil edib, bu sektorun ÜDM-də payı isə 58 faiz-dən 71 faiz-ə yüksəlib" - deyə o qeyd edib.

---

■ Ukraynadakı vəziyyətlə əlaqədar olaraq, G7 ölkələri Rusiyaya, o cümlədən onun neft və qaz sektoruna sanksiya təzyiqini artıracaqlar. "Biz Rusiyanın hərbi iqtisadiyyatına təzyiqi artırmağa sadiqik. Bu kontekstdə neft və qaz sektoruna qarşı da daxil olmaqla, sanksiyaları sərtləşdirəcəyik", - bəyanatda deyilir.

---

■ Hüquqşünas Fərhad Mehdiyevin qızı yol-nəqliyyat hadisəsi zamanı həyatını itirib. Məlumata görə, hadisə Riyad Ticarət Mərkəzinin qarşısında qeydə alınıb. Gənc qızın idarə etdiyi motosiklet "Mercedes-Benz" markalı avtomobillə toqquşub.

---



■ İtaliyanın Baş naziri Corcia Meloni bir ay əvvəl siqareti tərgitdiyini bildirib. Bu barədə Meloni Fransada keçirilən G7 sammiti çərçivəsində digər liderlərlə söhbəti zamanı danışıb. Qeyd edək ki, ötən il Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan görüş zamanı Meloniyə siqareti tərgitməyi məsləhət görmüşdü.

---

■ 2026-cı ilin ilk rübündə Azərbaycan neftinin reallaşmış orta qiyməti 79,5 dollar olub. Bu rəqəm 2025-ci ilin eyni dövrü ilə müqayisədə 7 faiz çoxdur. Bunu AMB Statistika departamentinin direktoru Samir Nəsirov 2025-ci ilin yekunlarına dair tədiyə balansının açıqlanmasına həsr olunmuş brifinqdə deyib. "Azərbaycan qazının ixrac olunmuş min kubmetri 268 dollar təşkil edib, - o bildirib.

---

■ "Arsenal" Manu Kone transferi üçün ciddi addımlar atır. London klubu artıq "Roma"nın yarımmüdafiəçisinin nümayəndələri ilə razılıq əldə edib. 25 yaşlı fransız futbolçu da karyerasını Premyer Liqada davam etdirməyə üstünlük verir. Roma klubu yarımmüdafiəçinin transferindən 50 milyon avro gəlir əldə etmək istəyir.

---




■ 2026-cı ilin birinci rübündə Azərbaycan iqtisadiyyatına 1,720 milyard dollar birbaşa xarici investisiya yatırılıb. Bunu AMB Statistika departamentinin direktoru Samir Nəsirov deyib. Onun sözlərinə görə, Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiya qoyuluşu ötən ilin eyni dövrü ilə müqayisədə 13,2 faiz artıb.

---

■ Çin ticarət və maliyyə sahəsində xarici təzyiqlər qarşısında milli maraqlarını və suverenliyini qətiyyətlə müdafiə edəcək. Bunu Çinin Dövlət Şurası Baş nazirinin müavini He Lifeng 2026 Maliyyə Forumunda çıxışı zamanı bildirib.

---

■ Hazırda ABŞ ilə aramızda həqiqətən də fikir ayrılıqları var. Bunu İsrailin maliyyə naziri Bezalel Smotriç deyib. "İşimiz mövqeyimizi qoruyarkən bu böhranla necə mübarizə aparacağımızı bilməkdir", - o bildirib.

# Diz və bud oynaqlarımızın ən böyük düşməni

***Artıq çəki oynaq sağlamlığına ən çox təsir edən amillərdən biridir. Bunu "Sağlam radio"nun (93 FM) "Sağlam səhər" efirində travmatoloq-ortoped Valid Novruzov açıqlayıb. Onun sözlərinə görə, insanların çoxu bunu yalnız estetik məsələ kimi qəbul etsə də, əslində artıq çəki ilk növbədə diz və bud-çanaq oynaqlarına əlavə yük deməkdir: "Məsələn, insan yeriyərkən diz oynağına bədən çəkisinin bir neçə qatı qədər təzyiq düşür. Bu səbəbdən hətta bir neçə kilo artıq çəki belə illər ərzində oynaqlarda ciddi aşınmaya səbəb ola bilər.***

Qığırdaq toxuması zədələndikcə oynaq səthləri bir-birinə sürtünməyə başlayır və nəticədə ağrı, hərəkət məhdudluğu və deformasiya yaranır. Xəstələr çox vaxt "ayağım məni saxlamır", "pilləkəndən enməkdə çətinlik çəkirəm" və ya "yeriyəndə dizimdən səs gəlir" kimi şikayətlərlə müraciət edirlər. Oynaq dəyişdirilməsinə səbəb olan ən əsas xəstəlik artrozdur. Artroz zamanı oynaq qığırdağı tədricən sıradan çıxır və oynaq öz funksiyasını itirməyə başlayır. Bununla yanaşı, revmatoid artrit kimi iltihabi xəstəliklər də oynaqlarda ciddi zədələnmə yarada bilər. Bud sümüyü başının avaskulyar nekrozu da xüsusilə bud-çanaq oynağının dəyişdirilməsinə səbəb olan əsas problemlərdən biridir. Bundan başqa, köhnə sınıqlar, travmalar və düzgün bitişməyən sümük zədələnmələri də zamanla oynağın sıradan çıxmasına gətirib çıxara bilər. Anadangəlmə oynaq problemləri və bəzi metabolik xəstəliklər də gələcəkdə endoprotez ehtiyacını artıra bilir".



Valid Novruzov onu da qeyd edib ki, ən vacib məqamlardan biri odur ki, artıq çəkinin azaldılması bir çox hallarda əməliyyatı gecikdirə və ya ağrıların azalmasına kömək edə bilər: "Sağlam qidalanma, düzgün fiziki aktivlik və əzələlərin gücləndirilməsi oynaqların qorunmasında çox böyük rol oynayır. İnsanlar çox vaxt ağrını yaşlanmanın normal hissəsi hesab edərək, həkimə gec müraciət edirlər. Halbuki erkən mərhələdə başlanılan müalicə həm oynağın qorunmasına, həm də gələcəkdə daha ağır problemlərin qarşısının alınmasına kömək edir".

Ən çox dəyişdirilən oynaqlar diz və bud-çanaq oynaqlarıdır. Bunun əsas səbəbi sözügedən oynaqların gün ərzində bədənimizin bütün yükünü daşıması və ən çox hərəkətdə iştirak etməsidir. Valid Novruzov açıqlayıb. Onun sözlərinə görə, insan yeriyəndə, pilləkən qalxanda, oturub-duranda və hətta sadəcə ayaq üstə dayananda belə, ən böyük yük məhz diz və bud-çanaq oynaqlarının üzərinə düşür:

"İllər keçdikcə qığırdaq toxuması aşınmağa başlayır, oynaq səthləri hamar quruluşunu itirir və nəticədə ağrı yaranır. Xəstələr əvvəlcə uzun müddət piyada hərəkət edərkən narahatlıq hiss etdiklərini deyirlər, lakin zaman keçdikcə bu ağrılar gündəlik həyatın bir hissəsinə çevrilir. Diz oynağında ağrı ilə yanaşı, şişkinlik, sərtlik və ayağın tam açılıb-bükülməməsi, yəni hərəkət məhdudiyyəti ilə də müşahidə oluna bilər. Bud-çanaq oynağında isə ağrı daha çox qasıq nahiyəsində hiss olunur və bəzən bud və diz nahiyəsinə yayılır". Travmatoloq-ortoped bildirib ki, müasir tibbdə oynaq endoprotezləşdirilməsi insanların həyat keyfiyyətini ciddi şəkildə yaxşılaşdıran əməliyyatlardan biridir:

"Məqsəd yalnız ağrını aradan qaldırmaq deyil, insanın yenidən sərbəst hərəkət edə bilməsini təmin etməkdir. Cərrahi müdaxilədən sonra bir çox xəstə illərlə edə bilmədiyi gündəlik fəaliyyətlərinə qayıda bilir. Son illərdə texnologiyanın inkişafı ilə protezlərin keyfiyyəti və davamlılığı da xeyli artıb. Bunun sayəsində əməliyyatların nəticələri daha uğurlu olur və xəstələr daha aktiv həyat yaşayırlar. Diz və bud-çanaq nahiyələrindən başqa bəzi hallarda çiyin, dirsək və ayaq biləyi oynaqları da dəyişdirilə bilir. Xüsusilə ağır travmalar, revmatik xəstəliklər və ya oynaqda ciddi deformasiya olduqda bu əməliyyatlara ehtiyac yaranır. Ən vacib məqamlardan biri isə, xəstənin vaxtında əməliyyat üçün müraciət etməsidir. Çünki oynaq tam sıradan çıxmadan aparılan müalicə və düzgün planlaşdırılmış əməliyyat nəticələri daha uğurlu edir".



## Panorama

**_Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Fransa və Kiprin adada fransız qoşunlarının mövcudluğunu tənzimləyən müqavilə imzalamasından iki gün sonra Şərqi Aralıq dənizində Türkiyəni və ya Kipr türklərini təhdid edən hər hansı bir hərəkətə "çox sərt" cavab veriləcəyi barədə xəbərdarlıq edib. Ərdoğan bildirib: "Hazırda Aralıq dənizində, xüsusən də Kipr adasında nifaq alovlarını alovlandırmaq cəhdinin şahidi oluruq və hadisələri çox yaxından izləyirik. Heç kim ehtiyatsız davranış göstərməsin. Əgər kimsə Şərqi Aralıq dənizində Türkiyənin və Kipr türklərinin hüquqlarını və qanunlarını pozarsa, hamının bilməsini istəyirəm: cavabımız çox aydın və çox güclü olacaq"._**



# Türkiyə-Fransa rəqabəti: Kiprdən Afrikaya

Ərdoğan xəbərdarlığında Fransadan bəhs etməyib, lakin adı açıqlanmayan aktyorları Şərqi Aralıq dənizində qeyri-real ambisiyaları həyata keçirməkdə günahlandırıb.

### Məğlubiyyətlərə doymayan Fransa

**Son illərdə Fransa Afrika, Liviya və Qafqazdakı geosiyasi güc itkilərini Şərqi Aralıq dənizində aqressiv siyasət yürütməklə kompensasiya etməyə çalışır. Bu məqsədlə Paris hökuməti Kipr Rum administrasiyası ilə hərbi müqavilə imzalayıb və bu müqavilə Türkiyənin təsirini məhdudlaşdırmaq məqsədi ilə Fransa ordusunun bölgədə daimi yerləşdirilməsinə imkan verir.**

2009-cu ildə NATO-nun hərbi qanadına qayıtdıqdan sonra Fransa Türkiyənin Aralıq dənizi, Qara dəniz, Qafqaz, Balkanlar və Yaxın Şərqdəki artan təsirini neytrallaşdırmağa yönəlmiş siyasətlərə üstünlük verib. Fransa Türkiyəyə qarşı təsir uğrunda mübarizədə ilk məğlubiyyətini 2008-ci ildə, o vaxt baş nazir Baş nazir Rəcəb Tayyib Ərdoğanın dialoqa vurğu təşəbbüsü Rusiya-Gürcüstan gərginliyi zamanı o vaxtkı prezident Sarkozini kölgədə qoyduqda yaşayıb.

Emmanuel Makron əvvəlcə 2017-ci ildə, daha sonra isə 2022-ci ildə ikinci müddətə prezident seçilib. Makronun prezidentliyi dövründə Fransanın Türkiyəyə qarşı təsir uğrunda mübarizəsi ciddi itkilərə məruz qalmağa davam edib.

Fransa Qərbi Afrikada və Mali, Niger və Burkina Faso kimi ölkələri əhatə edən Sahel bölgəsindəki anti-müstəmləkə dalğası qarşısında ciddi itkilər verib. Fransa ordusu bu ölkələrdən qovulub. Türkiyə Fransanın bölgədən çıxması ilə yaranan boşluğu dolduran əsas ölkələrdən birinə çevrilib. Humanitar diplomatiya, Türkiyənin PUA-ları və müdafiə müqavilələri Türkiyənin uğurunda mühüm rol oynadı. Yenə də Makronun prezidentliyi dövründə Xəlifə Haftarı gizli şəkildə dəstəkləyən Fransa Liviyada Türkiyəyə uduzdu.

Beləliklə, Fransa da Liviyanın qərbindəki Aralıq dənizi enerji tənliyindən kənarlaşdırıldı. 2020-ci ildə Azərbaycanın Ermənistana qarşı Qarabağ müharibəsində Türkiyənin dəstəyi ilə qələbəsi Fransanı Cənubi Qafqaz tənliyindən çıxardı. Fəratın şərqindəki PKK ilə əlaqəli YPG-SDG elementlərini dəstəkləyən Fransa da Suriya hökumətinin əməliyyatından sonra bu bölgədəki təsirini itirdi.

### Makronun Kipr gedişi

**Bu yaxınlarda Makronun Türkiyəni Şərqi Aralıq dənizi və Kipr vasitəsilə mühasirəyə almaq kimi aqressiv siyasəti diqqətdə izlənilir.** Fransa ilə Yunanıstan arasında müdafiə müqaviləsi bu il yenilənib. Aprel ayında Makron Kipr Respublikasına səfər etmiş və Yunan Kipri ??lideri Xristodulides ilə birgə mətbuat konfransı keçirərək ölkəsi ilə Kipr Respublikası arasında Qüvvələrin Statusu Sazişinin (SOFA) iyun ayında imzalanacağını elan etmişdi. Fransa ordusunun Cənubi Kiprdə daimi yerləşdirilməsinə imkan verən bu saziş iyunun 8-də imzalanıb.

İranın raket hücumundan sonra mart ayından bəri Kipr Respublikasında Fransanın hava hücumundan müdafiə bölməsi yerləşdirilib. Suriya və Livanda təsirini bərpa etməyə çalışan Fransanın Mari şəhərindəki Yunan Kipr hərbi limanından və Pafosdakı Andreas Papandreu hərbi bazasından istifadə etmək istədiyi bildirilir.



Həmçinin xəbərlər yayılıb ki, Yunan Kipr ordusu modernləşdirmə proqramının bir hissəsi olaraq Fransadan döyüş helikopterləri və hava hücumundan müdafiə sistemləri alıb.

Yunan Kipri ??lideri Nikos Xristodulides Fransa ilə imzalanmış SOFA müqaviləsinin qüvvəyə mindiyini açıqlayıb. Saziş Fransa hərbi elementlərinin müəyyən şərtlər altında Cənubi Kiprdə yerləşdirilməsinə imkan verir və iki ölkə arasında hərbi əməkdaşlığı gücləndirir.

Xristodulides açıqlamasında SOFA-nın imzalanmasının və qüvvəyə minməsinin Avropa Birliyi (AB) daxilində strateji muxtariyyət kimi ortaq Avropa məqsədinə töhfə verdiyini iddia edib.

Saziş həmçinin Fransanın Şərqi Aralıq dənizi və Yaxın Şərqdə müxtəlif fəaliyyətlər üçün Cənubi Kiprdə hərbi mövcudluğu üçün hüquqi əsas yaradır. Kipr Rum lideri Nikos Xristodulidesin qüvvəyə mindiyini elan etdiyi SOFA, həmçinin Fransanın Kipr Rum administrasiyasında bazalardan və hərbi infrastrukturdan istifadə etməsinə imkan verir. Saziş Fransa ilə Kipr Rumları arasında hərbi texnologiya mübadiləsini, birgə təlimləri və strateji dialoqu da əhatə edir.

Fransız hərbi elementlərinin adada yerləşdirilməsi Şimali Kipr Türk Respublikası Xarici İşlər Nazirliyinin sərt reaksiyasına səbəb olub. Bəyanatda deyilir: "Humanitar məqsədlər adı altında hərbi qazanc və üstünlüklər əldə etməyə yönəlmiş və adada Kipr türk xalqının suveren və bərabər hüquqlarını nəzərə almayan bu və oxşar addımlar adamızın və bölgəmizin təhlükəsizliyi və sabitliyi ilə bağlı yaradılmış incə tarazlığı pozmaq məqsədi daşıyır və ŞKTR və Kipr türk xalqı üçün etibarsızdır. Biz həmçinin Fransanı bölgəmizə zərər verən təşəbbüslərinə son qoymağa çağırırıq".

Adada Fransa hərbi qüvvələrinin daimi mövcudluğu beynəlxalq hüquqa əsasən problemli bir sahə təşkil edir. 1960-cı ildə Kipr Respublikasının qurulması zamanı Böyük Britaniya, Türkiyə və Yunanıstan arasında zəmanət müqaviləsi imzalanmışdır. Bu müqavilə başqa bir ölkənin qoşunlarının Kiprdə olmasını mübahisəli edir. Türkiyə bu vəziyyəti beynəlxalq hüquqa zidd hesab edir.

### Türkiyə Fransanın qalasını ələ keçirir

**Qeyd edək ki, Paris və Ankara arasında strateji rəqabət bölgəsi tək Kipr və Şərqi Aralıq dənizi hövzəsi deyil. Əsas rəqabət həm də Afrika qitəsi uğrunda gedir.**

Fransanın son illərlə qara qitədə ağır strateji məğlubiyyətlər alması Ankaranın imkanlarını xeyli genişləndirib. Nəticədə Fransanın özü üçün alınmaz qala hesab etdiyi bir çox Afrika ölkəsi hazırda Türkiyə ilə hərbi əməkdaşlığın genişləndirilməsinə daha çox üstünlük verir.

Türkiyənin müdafiə sənayesi və beynəlxalq tərəfdaşlıq istiqamətində atdığı addımlar dünya mətbuatı tərəfindən yaxından izlənilir.

Fransada yerləşən RFI-nin məlumatına görə, Türkiyə Afrika qitəsində hərbi təlim fəaliyyətlərini genişləndirərkən, Mali və Niger əsgərləri Türkiyədə xüsusi təyinatlı qüvvələr təlim proqramlarını başa vurublar. Bildirilib ki, Ankara qitə ilə müdafiə və təhlükəsizlik sahəsində əlaqələrini dərinləşdirməyi hədəfləyir. Hesabatda bildirilir ki, Mali və Niger əsgərləri bu ay Spartadakı Eğirdir Dağ Komando Məktəbi və Təlim Mərkəzində keçirilən xüsusi təyinatlı qüvvələr təlimlərini başa vurublar. Hesabata görə, Türkiyənin Afrikada ən böyük xarici hərbi bazasına malik olduğu Somalidən ilhamlanaraq hazırlanmış və "Somali modeli" adlandırılan bu yanaşma Ankaranın qitə strategiyasının fundamental elementinə çevrilib.

Məqalədə vurğulanır ki, Türkiyə hazırda 1990-cı və 2000-ci illərdə Orta Asiya ölkələrinə tətbiq etdiyi hərbi təlim əməkdaşlıq modelini Afrikada tətbiq edir. Bir çox Afrika ölkəsinin müdafiə sahəsində Türkiyə ilə əməkdaşlıq etmək istədiyi və bu inkişafın Türkiyə üçün müsbət hesab edildiyi bildirilir.

Məqalədə qeyd olunur ki, Türkiyə son illərdə Afrika ölkələri ilə 20-dən çox hərbi təlim və əməkdaşlıq müqaviləsi imzalayıb.

Hesabata görə, Ankara hərbi təlim fəaliyyətlərini Afrikadakı təsirini artırmağın nisbətən ucuz metodu kimi görür. Mütəxəssislər vurğulayırlar ki, bu yanaşma birbaşa hərbi müdaxilə ilə müqayisədə daha az risk və əməliyyat xərcləri daşıyır və həmçinin müdafiə diplomatiyasının mühüm vasitəsi kimi istifadə olunur.

RFI hesabatında bildirilir ki, Türkiyə Fransanın Qərbi Afrika və Sahel bölgəsində azalan hərbi və diplomatik təsirinin yaratdığı boşluqdan istifadə etməyə çalışır.

Digər tərəfdən, bəzi Afrika ölkələrinin də Rusiya və Çinin artan təsirinə qarşı Türkiyəni alternativ tərəfdaş kimi gördüyü bildirilib.

Afina mərkəzli Yunanıstan və Aralıq dənizi Araşdırmaları Mərkəzinin Liviya üzrə eksperti Aya Burveilla, Türkiyənin Liviyadakı müxtəlif administrasiyalarla əlaqəli təhlükəsizlik qüvvələrinin təliminin Avropa üçün də vacib olduğunu bildirib. Burveilla, Liviyanın Avropaya qeyri-müntəzəm miqrasiya yollarının mərkəzində olduğunu və sərhədlərini qoruya bilən və mütəşəkkil bir orduya sahib bir Liviyanın da Avropanın maraqlarına uyğun olduğunu bildirib.

Hesabatda Türkiyənin hərbi təlim fəaliyyətlərinin inkişaf edən müdafiə sənayesini də dəstəklədiyi vurğulanıb. Qeyd edilib ki, Türkiyənin müdafiə sektorundakı əlaqələri Afrika hərbi və siyasi liderlərinin İstanbulda keçirilən müdafiə sənayesi sərgilərinə marağını da artırıb. Hesabatda fikirləri yer alan mütəxəssislər bildiriblər ki, Somali kimi ölkələrdə gənc zabitlərin təlimi Türkiyəyə uzunmüddətli üstünlüklər verə bilər. Təhlildə bu gün təlim keçən bəzi zabitlərin gələcəkdə general rütbəsinə yüksələ biləcəyi və bu vəziyyətin Türkiyə ilə bu ölkələr arasında davamlı əlaqələr yaratdığı qeyd edilib.

✍ ***Azad Əliyev***

# Əlaqələndirmə Qərargahının növbəti iclası Ağdərə şəhərində keçirilib

**_Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə iyunun 17-də Ağdərə şəhərində Qərargahın növbəti iclası keçirilib. İclasda çıxış edən Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin ölkənin hərtərəfli inkişafının əsasını təşkil etdiyini bildirib._**

## Müzakirə

O vurğulayıb ki, son dövrlərdə müxtəlif sahələr, o cümlədən kənd təsərrüfatı üzrə qəbul edilən strateji sənədlər, dövlət proqramları və həyata keçirilən islahatlar ölkənin sosial-iqtisadi inkişafının vahid yanaşma əsasında təmin olunduğunu bir daha təsdiqləyir.

Qərargah rəhbəri vurğulayıb ki, Böyük Qayıdış prosesi milli inkişaf strategiyasının əsas istiqamətlərindən biri olmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi, sosial və institusional sisteminə tam inteqrasiyasını nəzərdə tutur. Ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri nəticəsində zəruri infrastruktur qurulub.



Hazırda əsas prioritet yaradılmış infrastruktur bazası üzərində dayanıqlı iqtisadi inkişafın təmin olunması, məskunlaşmanın iqtisadi və sosial dayaqlarının gücləndirilməsidir. Qeyd olunub ki, Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası yekunlaşmaq üzrədir və hazırda Böyük Qayıdışa dair II Dövlət Proqramının hazırlanması istiqamətində intensiv iş aparılır.

Samir Nuriyev işğaldan azad edilmiş ərazilərin aqrar potensialının Böyük Qayıdış prosesinin iqtisadi dayanıqlılığının təmin edilməsində mühüm rol oynadığını diqqətə çatdırıb. Onun sözlərinə görə, torpaq və su ehtiyatlarından səmərəli istifadə, aqrar istehsalın genişləndirilməsi, istehsal və emal imkanlarının yaradılması, eləcə də kənd təsərrüfatı sahəsində dayanıqlı məşğulluğun təmin olunması qarşıdakı dövrün əsas vəzifələrindəndir. Bu baxımdan "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində nəzərdə tutulan tədbirlərin Böyük Qayıdış üzrə həyata keçirilən fəaliyyətlərlə əlaqələndirilməsi vacibdir. Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma əhalinin məşğulluğunun təmin edilməsindən, iş yerlərinin yaradılmasından və iqtisadi fəaliyyət imkanlarının genişləndirilməsindən asılıdır. Bu baxımdan kənd təsərrüfatı da daxil olmaqla, müxtəlif sahələrdə məşğulluq imkanlarının artırılması, peşə bacarıqlarının inkişaf etdirilməsi, sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi və iqtisadi fəallığın yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsi xüsusi əhəmiyyət daşıyır.

İclasda, həmçinin ekoloji dayanıqlılığın təmin edilməsi və su ehtiyatlarının idarə olunması məsələlərinə toxunulub. Bildirilib ki, təbii ehtiyatlardan səmərəli istifadə, ekosistemlərin bərpası və torpaq ehtiyatlarının qorunması uzunmüddətli inkişafın mühüm şərtlərindəndir.

İşğaldan azad edilmiş ərazilərdə su təsərrüfatı obyektlərinin bərpası ilə yanaşı, su ehtiyatlarının müasir səviyyədə və qənaətli idarə olunması, müxtəlif sahələrin suya olan tələbatının balanslı şəkildə ödənilməsi və ölkənin su təhlükəsizliyinin möhkəmləndirilməsi qarşıda duran əsas vəzifələr sırasındadır.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadə və aqrar istehsalın təşkili, əhalinin məşğulluğunun təmin edilməsi, ekoloji dayanıqlılığın gücləndirilməsi və su ehtiyatlarının idarə olunması istiqamətində görülən işlər barədə məruzələr dinlənilib.

İclasın yekununda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş strateji hədəflərə uyğun olaraq, işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi sosial-iqtisadi inkişaf prosesinə inteqrasiyasının sürətləndirilməsinin, Böyük Qayıdış prosesinin dayanıqlılığının təmin olunmasının və əhalinin rifahının yüksəldilməsi istiqamətində fəaliyyətin ardıcıl şəkildə davam etdirilməsinin vacibliyi bir daha iclas iştirakçılarının diqqətinə çatdırılıb.

# ABŞ İrana investisiya qoymaq niyyətində deyil

**Vaşinqton münaqişənin həlli çərçivəsində İrana investisiya qoymaq niyyətində deyil, lakin digər ölkələrin bunu etməsini qadağan etmir.**

Xarici media yazır ki, bunu ABŞ prezidenti Donald Tramp bildirib. "ABŞ-nin ivestisiya qoyacağı ilə bağlı məlumat yalandır. İstəsəniz, investisiya qoya bilərsiniz. Mən sizə bunu etməyinizə əngəl olmayacağam. Amma biz, ABŞ heç 10 sent belə investisiya qoymayacağıq", - Tramp bildirib. Qeyd edək ki, mediada İranın ABŞ ilə razılaşmanın bir hissəsi olaraq 300 milyard dollar investisiya alacağı ilə bağlı xəbərlər yayılıb. O, həmçinin bildirib ki, İran iqtisadiyyatına investisiya qoyuluşu məsələsində Körfəz Ərəb ölkələri ilə danışıqlar aparmır. Daha əvvəl "Əl-Ərəbiyyə" telekanalı İran və ABŞ arasında imzalanması gözlənilən müqavilənin mətnini yaymışdı. Sazişdə deyilirdi ki, ABŞ və onun regional tərəfdaşları ən azı 300 milyard dollar maliyyələşdirmə təmin etməklə İranın yenidən qurulması və inkişafı üçün plan hazırlamağa öhdəlik götürürlər.

# Krım artıq adaya çevrilib

***Rusiyanın Ukraynaya qarşı apardığı qanlı müharibə dörd ildən artıqdır davam edir. Bu müddətdə onminlərlə insan həlak oldu, onminlərlə yaralandı, milyonlarla insan evindən-torpağından didərgin düşdü, bütöv şəhərlər dağıdıldı, kəndlər xəritədən silindi. İlk dəfə Rusiya Kiyevdə yerləşən ukraynalı xristianların müqəddəs məbədi olan Peçersk Lavrasını bombaladı. Bu nə deməkdir? Rusiya üçün mədəniyyət və tarixə hörmət bitib, yoxsa bilərəkdəm insanların inancına təcavüz edilir?***

## Müsahib

BMT-dəki Ukrayna qadınlarının müstəqil nümayəndə heyətinin rəhbəri, Qadın Geosiyasi Alyansının prezidenti Svetlana Salamatova Hafta.az-a müsahibəsində bir çox məqama diqqət çəkdi:

- Rusiya 2014-cü ildən bəri Ukrayna ilə müharibə aparır. Əvvəlcə Krımı ilhaq etdi, sonra Donetsk vilayətinin bir hissəsini ələ keçirdi və artıq 40 aydır, Ukraynaboyu hərbi terror vasitəsilə Kiyevdəki qərar qəbuletmə mərkəzini məhv etməyə çalışır. Bu arada, onlar Putinin Ukraynanı necə sevdiyi və hörmət etdiyi barədə şayiələr yayırlar. Bu, kinayə və universal miqyaslı bir cinayətdir, buna görə bütün məsul şəxslər ədalətli cəza alacaqlar. Bəli, Putinin şəxsi əmri ilə Kiyev Peçersk Lavrası ərazisinə raket zərbəsi endirildi. Nəticədə, Kiyev Peçersk Lavrasının mərkəzi kilsəsi olan Uspen katedralının günbəzi yandı. 1073-cü ildə tikilmiş Uspen katedralı bir neçə dəfə, ən sonuncusu 1941-ci ildə dağıdılıb. Kiyevlilər üçün kafedral, məsələn, romalılar üçün Müqəddəs Pyotr bazilikası qədər əhəmiyyətlidir.

Putinin belə bir əmr verməsinin səbəbini bilmirəm, amma müharibə dövrü məntiqinə əsasən, onun məqsədi kiyevliləri psixoloji cəhətdən sındırsın, Putinin nifrət etdiyi Kiyev rejimini öz əlləri ilə devirsinlər. Müharibənin əvvəlində bu hücumlar Putin tərəfindən qanuni olaraq təyin edilmiş hərbi hədəflər olan yaşayış binalarına, xəstəxanalara və uşaq bağçalarına davamlı raket və pilotsuz təyyarə hücumlarını əhatə edirdi. Sonradan enerji infrastrukturunun məhv edilməsi, kiyevliləri tamamilə qaranlığa, mənfi 20 dərəcədə soyuğa və aclığa saldı. İndi isə mənəvi zərbə vurur. Kiyev sakinlərinin emosiyalarını çatdırmaq mümkün deyil. Gecə katedral alovlara qərq oldu, zənglərinin səsi şəhərin hər yerində əks-səda verdi... Və birdən, sanki Tanrı tərəfindən göndərilən güclü yağış alovu söndürənlərin köməyinə gəldi.

***- Ukrayna ictimaiyyətinin dini mərkəzə hücuma reaksiyası necədir? Mənə elə gəlir ki, dünya ölkələri də kifayət qədər reaksiya vermədi... Rus kilsəsi, heç olmasa, bir kilsə kimi, reaksiya verdi?***

- Belə hadisələr ukraynalıları birləşdirir və dözümlülük üçün əlavə motivasiya yaradır. Putin və onun əmrlərini yerinə yetirənlər yalnız qlobal pravoslavlığın simvollarına deyil, həm də Kiyevdəki Mistetsk Arsenal Müasir İncəsənət Mərkəzinə və Xarkovdakı İncəsənət Muzeyinə də ölümcül raket atırlar. Bu halda Ukraynada öldürülən rus əsgərlərə kilsələrində xeyir-dua verən rus pravoslav dünyasının nümayəndələrindən hansı reaksiyanı gözləmək olar? Hesab edirəm, beynəlxalq ictimaiyyətin mədəni və tarixi abidələrin məhv edilməsinə reaksiyası yetərli deyil. Kiyev Peçersk Lavrası UNESCO tərəfindən qorunan memarlıq abidələri siyahısına daxildir. Putinin raket zərbəsi ilə bağlı şərhində UNESCO rəhbəri bu dünya mədəni irs obyektinə ölümcül raketlər atan ölkənin adını belə çəkməyib. Bunun doğru və ya yanlış olması ilə bağlı internetdə müzakirələr başlayıb.

Rusiyadan raket buraxılışı faktı hüquqi cəhətdən təsdiqlənməlidir. Əminəm ki, UNESCO Ukrayna ordusunun müşahidəçilərindən raketlərin Rusiyaya məxsus olduğunu təsdiqləməsini tələb etməyib. Dörd ildən çox davam edən müharibədən sonra belə bir birbaşa əlaqə xətti yaradıla bilərdi. İnsani baxış bucağı Rusiyanın dörd ildən çoxdur ki, ukraynalıları və Ukraynanı sistematik şəkildə məhv etdiyinə dair heç bir sübut tələb etmir. Təəssüf ki, bu soyqırımı hələ də BMT tərəfindən tanınmayıb.

***- Rusiyanın əksər böyük şəhərlərində benzin çatışmazlığı yaşanır və bunun səbəbləri hamıya məlumdur. Sizcə, Ukraynanın cəbhəni hava hücumları vasitəsilə Rusiyanın daxili ərazilərinə yayması müharibənin gedişatını Kiyevin xeyrinə dəyişə bilər?***

- Ukrayna, müttəfiqləri ilə birlikdə, artıq müharibənin gedişatını dəyişdirib. Müasir müharibə texnoloji müharibədir. Hava hücumları, artıq əsas silah deyil, köməkçi silahdır. Ukrayna müharibənin gedişatını dəyişdirib və döyüş meydanında liderdir. Rusiyanın uduzduğunu hamı bilir, amma "rus çarı" bunu etiraf etmək istəmir...

***- Krımda nə yenilik var? Xəbərlərə görə, Ukrayna ordusu Xerson bölgəsində yarımadaya doğru irəliləyib. Bu, doğrudur? Əgər doğrudursa, Ukrayna ordusunun Dneprin şərq sahilində nə qədər irəlilədiyini deyə bilərsiniz?***

- Krımla bütün quru nəqliyyat əlaqələri Ukrayna ordusunun nəzarəti altındadır və bu, bir yük maşınının da yarımadaya daxil olmasına icazə vermir. Beləliklə, Krım yarımadası artıq adaya çevrilib. Rusiya Qara dəniz Donanması komandanlığı qərargahını Novorossiyskə köçürüb. Bu, Ukrayna qoşunlarının onlar üçün birbaşa təhlükə yaratdığını göstərir. Qara dənizdəki donanmanı Krımdan və Novorossiyskdən idarə etmək arasında böyük fərq var. Cəmi bir il əvvəl dünyanın bütün hərbi mütəxəssisləri üçün qeyri-mümkün görünən şey - Ukraynanın Krımı geri qaytarması - indi Ukrayna ordusu sayəsində reallığa çevrilib. Xersonda vəziyyət tamamilə Ukrayna ordusunun nəzarəti altındadır. Təəssüf ki, heç bir irəliləyiş yoxdur, amma bunu təmin etmək üçün mümkün və qeyri-mümkün hər şey edilir. Oradakı ərazi Rusiya qüvvələrinə mövqelərini uğurla saxlamağa imkan verir. Vəziyyətin Ukraynanın xeyrinə nə qədər tez dəyişəcəyini görəcəyik - bu, bizim torpağımızdır.



**Svetlana Salamatova,**
Ukrayna Qadın Geosiyasi Alyansının prezidenti

***- ABŞ İranla razılığa gəldi. İran isə hər cəhətdən Rusiyanın ən yaxın müttəfiqidir. Bu o deməkdir ki, İran yenidən Rusiyanı dəstəkləməkdə sərbəst olacaq və nəticədə Ukraynaya təzyiq artacaq...***

- Təəssüf ki, ABŞ-İran müqaviləsində İranın ukraynalıların qətlində Rusiyanı dəstəkləməsinin qarşısını alan bənd yoxdur. Əksinə, bu bənddə İrana tam seçim azadlığı verən bənd var. Buna görə də Rusiya və İran müttəfiq olaraq qalacaqlar. Təəssüf ki, onların "şahid"ləri çoxlu zərər vurub və ukraynalılara böyük kədər və əzab gətirib. Onların pilotsuz təyyarələri bir çox ukraynalıları evsiz qoyub. Bir çox ailə yaxınlarını itirib. İran bunun üçün böyük məsuliyyət daşıyır. Lakin bu məsuliyyəti daşıyacaq heç kim yoxdur.

***- Yeri gəlmişkən, Tramp İranla atəşkəs əldə edilən kimi, Ukraynanı və Avropanı sülh müqaviləsi imzalamağa məcbur edəcəyini bildirdi. Beləliklə, Vaşinqton indi Rusiyanın aşkar müttəfiqi kimi davranır...***

- Ukrayna dövlətinin müstəqilliyinin və bütövlüyünün qorunmasında ABŞ-ın rolu barədə şərh verməK mənim üçün çox ağrılıdır. Uzun illərdir, yerli hökumətlər, təşkilatlar, vətəndaş liderləri və biznes səviyyəsində Ukrayna ilə ABŞ arasında dostluq və sevgi körpüsü qururam. Həmişə ölkələrimizin birlikdə olmalı olduğunu bilmişəm. Bu, həm siyasi, həm də iqtisadi cəhətdən hər iki tərəf üçün faydalıdır, çünki bir-birimizi gücləndiririk. Prezident Obamanın dövründə Krımın bir güllə də atılmadan ruslara təslim edilməsi məni çox incitmişdi. Prezident Trampın və daha sonra Baydenin dövründə Ukraynanın şərq ərazilərini müdafiə etməyi dayandırmağa məcbur olması məni dözülməz dərəcədə incitmişdi. Rusiyanın nüvə hücumu qorxusu, onun Ukraynaya genişmiqyaslı hücumu zamanı Ukrayna hava məkanının bağlanmasının qarşısını aldı.

Prezident Trampın Putini ictimaiyyət qarşısında tanıması, onun qlobal təcriddən çıxarılması və bütün beynəlxalq problemlərin mənbəyi kimi Ukraynaya təzyiq göstərməsi, ələ keçirdiyi əraziləri təslim etməklə müharibəni bitirməsi üçün təzyiqi var. Ukraynanın döyüş meydanında üstünlük qazanmasına imkan verən başqa bir "görünməz" proses gedir. Məsələn, Ukrayna bütün Rusiyada zərbələr endirə bilər və bunun müharibənin gedişatına necə əhəmiyyətli dərəcədə təsir etdiyini görürük.

> *Putinin məqsədi kiyevliləri psixoloji cəhətdən sındırmaqdır*
>
> *Vəziyyətin Ukraynanın xeyrinə nə qədər tez dəyişəcəyini görəcəyik - bu, bizim torpağımızdır*
>
> *ABŞ noyabrda keçiriləcək növbəti seçkilərə hazırlaşır və bu da rəsmi Vaşinqtonu Ukraynanın Putinlə ölümcül mübarizədə uduzmasının qarşısını alacaq tədbirlər görməyə məcbur edir*

Vaşinqton qlobal qəzəbə səbəb olan və eyni zamanda Ukraynaya texniki yardımı artıran bir hərəkətlə Putinə müharibəni dayandırmağın faydalarını göstərir. Vaşinqton Rusiyaya uduza bilməz. Bu, ABŞ-ni daxildən məhv edər.

***- Bu arada, Amerikanın Ukraynaya hərtərəfli dəstəyi Bayden dövründə olduğu kimi davam edir, yoxsa nəzərəçarpacaq azalma hiss olunur?***

- ABŞ-nin Ukraynaya yardımının dayandırılması bu ölkədəki Ukrayna ictimaiyyətini ruhlandırıb və onları Konqresdə Ukrayna üçün birgə müdafiə aparmağa məcbur edib. ABŞ-dakı Ukrayna diasporu güclənir, lakin kifayət qədər birləşməyib. Hərtərəfli dəstək ukraynalıları ABŞ daxilində birləşdirməklə və rəsmi Kiyevlə, Ukrayna dövlət qurumları ilə sistemli şəkildə əlaqə qurmaqla təmin edilə bilər.

ABŞ noyabrda keçiriləcək növbəti seçkilərə hazırlaşır və bu da rəsmi Vaşinqtonu Ukraynanın Putinlə ölümcül mübarizədə uduzmasının qarşısını alacaq tədbirlər görməyə məcbur edir. Buna görə də hərtərəfli yardım artacaq və bu, çox yaxşı haldır. Pis nədir? Ukraynanın təhlükəsizliyinə zəmanət verən ölkənin bu təhlükəsizliyi təmin edə bilməməsi pisdir ki, bu da minlərlə ukraynalının ölümünə və on milyondan çox ukraynalının qaçqın düşməsinə səbəb oldu, onlardan 200 mini müəyyən yaşayış statusu və ya gələcəklərini anlamadan ABŞ-dədir.

***- Nəhayət, gələn ay Ankarada keçiriləcək NATO sammiti Ukraynaya nə vəd edir?***

- Bu görüşlə bağlı gözləntilərim çox sadədir. Ümid edirəm, alyans bu dəlicəsinə qətllərin qarşısını alacaq qərar verəcək. Ümid edirəm, alyansa üzv ölkələr hazırda Ukraynada davam edən Avropa təhlükəsizliyinin müdafiəsinə peşəkar əsgərlərini cəlb etmək qərarına gələcəklər...

***✍ Vüsal Tağıbəyli***

***Son aylarda Bakı-Naxçıvan-Bakı istiqamətində həyata keçirilən aviareyslərdə müşahidə olunan gecikmələr və bəzi hallarda uçuşların təxirə salınması müəyyən narazılığa səbəb olub. Xüsusilə mütəmadi səfər edən sərnişinlər üçün bu vəziyyət ciddi narahatlıq yaradıb. Çünki regionun əsas hissə ilə əlaqəsi demək olar ki, tamamilə hava nəqliyyatından asılıdır. Bu asılılıq isə istənilən texniki nasazlıq, hava şəraiti və ya operativ dəyişiklik zamanı dərhal hiss olunan sistem riskinə çevrilir.***

# Naxçıvan üçün quru yolu



## Cəmiyyət

Məlumdur ki, Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas ərazisindən coğrafi baxımdan ayrı düşmüş bölgə olduğu üçün burada nəqliyyat infrastrukturu daha həssas xarakter daşıyır. Quru bağlantının olmaması Naxçıvan-Bakı xəttində alternativlərin məhdudluğunu artırır və nəticədə hava reysləri yalnız bir nəqliyyat vasitəsi kimi deyil, həm də əsas həyat xətti rolunu oynayır. Bu isə təkcə sərnişin daşınmasına deyil, eyni zamanda iqtisadi və sosial əlaqələrin davamlılığına da birbaşa təsir göstərir.

Belə şəraitdə reyslərin gecikməsi və ya ləğvi sadəcə logistika problemi kimi deyil, daha geniş sosial təsir yaradan hadisə kimi qəbul olunur. İşgüzar səfərlər, tibbi xidmətlərə çıxış, təhsil və ailə əlaqələri kimi gündəlik həyatın müxtəlif sahələri bu qeyri-sabitlikdən təsirlənir. Məhz buna görə də son dövrlərdə alternativ quru yolunun açılması ideyası yenidən gündəmə gəlib və ictimai müzakirələrin əsas mövzularından birinə çevrilib.

Tarixi baxımdan Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə quru bağlantısı mövcud olub, lakin müasir geosiyasi reallıqlar bu əlaqənin bərpasını mürəkkəbləşdirib. Hazırda müzakirə edilən variantlar əsasən üç istiqamət üzərində cəmləşir: Ermənistan ərazisindən keçə biləcək tranzit xətti, İran üzərindən mövcud marşrutların genişləndirilməsi və regionda yeni logistik dəhlizlərin formalaşdırılması.

Hər bir variant öz növbəsində həm siyasi razılaşmalar, həm də infrastruktur baxımından kompleks yanaşma tələb edir. İctimai diskussiyalarda tez-tez Naxçıvanın vəziyyəti Gürcüstan üzərindən keçən tranzit imkanları ilə müqayisə olunur. Lakin bu müqayisə tam uyğun hesab edilmir. Ekspertlər bildirirlər ki, Gürcüstan Azərbaycanın əsas hissəsi ilə birbaşa quru sərhədə malikdir və tranzit əlaqələri daha sadə coğrafi model üzərində qurulub. Naxçıvan isə ölkənin qalan hissəsindən tam ayrı yerləşən və birbaşa quru çıxışı olmayan bölgə olduğuna görə burada hər hansı quru bağlantı yalnız üçüncü ölkələrin ərazisindən keçməklə mümkün ola bilər ki, bu da məsələni həm siyasi, həm hüquqi, həm də təhlükəsizlik baxımından daha mürəkkəb edir.

Mütəxəssislərin ümumi yanaşmasına görə, Naxçıvana quru yolunun açılması prinsip etibarilə mümkün olsa da, bu, yalnız infrastruktur layihəsi kimi qiymətləndirilə bilməz. Burada əsas həlledici amillər regional siyasi razılaşmalar, tranzit rejimlərinin beynəlxalq hüquq çərçivəsində tənzimlənməsi, gömrük və təhlükəsizlik mexanizmlərinin formalaşdırılması və uzunmüddətli iqtisadi səmərəlilik modelinin təmin olunmasıdır.

Yəni məsələ təkcə yolun çəkilməsi deyil, eyni zamanda onun davamlı və stabil işləməsini təmin edən kompleks sistemin qurulmasıdır. Qısa və orta müddətdə isə daha real həll kimi hava nəqliyyatının sabitliyinin artırılması, uçuş cədvəllərinin daha dayanıqlı planlaşdırılması və sərnişinlərin operativ məlumatlandırılması ön plana çıxır. Eyni zamanda mövcud regional tranzit imkanlarının optimallaşdırılması və alternativ marşrutların mərhələli şəkildə genişləndirilməsi də müzakirə olunur.

Ümumilikdə, Naxçıvan-Bakı aviareyslərində yaranan problemlər bir daha göstərir ki, regionun nəqliyyat təhlükəsizliyi yalnız bir marşruta və ya bir nəqliyyat növünə əsaslana bilməz. Quru yol ideyası strateji baxımdan gündəmdə qalmaqda davam etsə də, onun reallaşması geniş regional razılaşmalar və uzunmüddətli siyasi iradə tələb edir. Bu səbəbdən məsələ yaxın perspektivdə daha çox strateji müzakirə mövzusu olaraq qalır, paralel olaraq isə hava nəqliyyatının dayanıqlığının gücləndirilməsi əsas praktiki istiqamət kimi görünür.

***✍ Sevinc***



**■ Türkiyənin Enerji Bazarlarını Tənzimləmə Qurumunun (EPDK) hesabatına görə, Azərbaycan 2026-cı ilin aprel ayında Türkiyənin qaz tədarükçüləri arasında ikinci ən böyük təchizatçı olub.**

Hesabat dövründə Türkiyə Azərbaycandan 996,66 milyon kubmetr təbii qaz idxal edib. Bu göstərici 2025-ci ilin aprel ayı ilə müqayisədə 0,32 faiz azdır (999,83 milyon kubmetr). Eyni dövrdə Türkiyə Rusiyadan 1,969 milyard kubmetr təbii qaz alıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 8,19 faiz çoxdur (təxminən 1,820 milyard kubmetr). Beləliklə, Rusiya aylıq tədarük həcminə görə birinci yeri tutub. İran isə Türkiyəyə 945,26 milyon kubmetr təbii qaz ixrac edib. Ötən ilin eyni dövründə bu göstərici 706,94 milyon kubmetr olub (33,71 faiz artım).



**■ Bu ilin birinci rübündə Azərbaycanın ilkin gəlirlər balansı profisitlə formalaşıb. Yəni təxminən 38 milyon dollarlıq profisit qeydə alınıb.**

Bunu Azərbaycan Mərkəzi Bankının (AMB) Statistika departamentinin direktoru Samir Nəsirov tədiyə balansının açıqlanmasına həsr olunmuş brifinqə deyib. "Biz bir çox hallarda qeyd edirdik ki, ölkədən portfel investisiyalarının çıxılması, yəni portfel investisiya formasında xaricdən qiymətli kağızların alınması növbəti dövrlərdə bizim gəlirlərimizi artıracaq. Bu ilin birinci rübündə ilkin gəlirlər balansının profisitini şərtləndirən ən vacib elementlərdən biri qiymətli kağızlar portfelindən əldə olunan faiz gəlirləridir.



**■ Avropa İttifaqı Rusiyanın tətbiq etdiyi idxal məhdudiyyətlərinin təsirini kompensasiya etmək məqsədilə Ermənistana təcili ticarət dəstəyi paketi hazırlayır. Bu barədə "Financial Times" məlumat yayıb.**

Nəşrin planlarla tanış olan dörd mənbəyə istinadən verdiyi məlumata görə, Avropa Komissiyası Ermənistanın ərzaq və kənd təsərrüfatı məhsullarının ixracına tətbiq olunan gömrük rüsumlarını azaltmağı nəzərdə tutan muxtar ticarət tədbirləri üzərində işləyir. Bildirilir ki, təşəbbüs Rusiyanın Ermənistanda keçirilən son parlament seçkiləri ərəfəsində tətbiq etdiyi idxal məhdudiyyətlərinə cavab olaraq hazırlanıb. Brüsseldə hesab edirlər ki, həmin addımlar Ermənistan hökumətinə təzyiq göstərmək məqsədi daşıyıb.



**■ Azərbaycanda ilk dəfə sukuk (İslam istiqrazları) emissiyası üçün hazırlıq işləri aparılır. Bunu Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov bildirib.**

Onun sözlərinə görə, ilə birgə həyata keçirilən layihə çərçivəsində ölkədə sukuk emissiyası üçün hüquqi və institusional baza formalaşdırılır: "Azərbaycan İslam maliyyə infrastrukturunun yaradılması üçün İslam İnkişaf Bankı Qrupu ilə birgə layihə həyata keçirir. Bu layihənin nəticəsi olaraq möhkəm hüquqi və tənzimləyici çərçivənin formalaşdırılması, maliyyə institutlarının İslam maliyyəsi üzrə potensialının artırılması, monitorinq və qiymətləndirmə sisteminin yaradılması və nəticə etibarilə Azərbaycanın ilk sukuk emissiyasına zəmin yaradılması gözlənilir.



**■ Bu gün dünya iqtisadiyyatının transformasiyası şəraitində beynəlxalq investisiya əməkdaşlığının genişləndirilməsi xüsusi aktuallıq kəsb edir.**

Bunu Baş nazir Əli Əsədov Özbəkistanın paytaxtında keçirilən V Daşkənd Beynəlxalq İnvestisiya Forumunda çıxışı zamanı deyib.

Baş nazirin sözlərinə görə, bu kontekstdə maliyyə resurslarının səmərəli birləşdirilməsini və strateji əhəmiyyətli layihələrin həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılmasını təmin edən birgə investisiya fondları mühüm alət kimi çıxış edir: "Bu yanaşmadan çıxış edərək Azərbaycan dost dövlətlərlə birgə investisiya platformalarının yaradılması təcrübəsini ardıcıl şəkildə inkişaf etdirir.



**■ Tacikistan Prezidenti Emoməli Rəhmon Dövlət Müstəqilliyinin 35-ci ildönümü münasibətilə "Amnistiya haqqında" Qanunu imzalayıb.**

Tacikistanın "Xovar" informasiya agentliyi xəbər verir ki, qanun ümumilikdə 18 min 38 nəfərə şamil ediləcək. Onlardan 11 min 305-i azadlıqdan məhrumetmə cəzasından azad olunacaq, 6 min 733 nəfərin isə qalan cəza müddəti azaldılacaq. Amnistiya yetkinlik yaşına çatmayanlar üçün də nəzərdə tutulub.

Belə ki, 134 azyaşlı məhkumdan 99-u azadlığa buraxılacaq, 35 nəfərin qalan cəzası isə yüngülləşdiriləcək. Qanun məhkəmə, istintaq və araşdırma mərhələsində olan bəzi şəxslərə də şamil edilir. Müvafiq qurumlara sənədin icrasını iki ay ərzində təmin etmək tapşırılıb.

# Kiçilən tikinti sektoru

***2025-ci ildə Azərbaycanda tikinti sektorunun 0,4 faiz kiçilməsi iqtisadi göstəricilər arasında diqqət çəkən məqamlardan biri olub. Bu, xüsusilə ona görə maraq doğurur ki, ilin əvvəlində sektorda 4,8 faiz artım gözlənilirdi, sonradan isə proqnoz daha da yüksəldilərək 7,9 faizə çatdırılmışdı. Lakin ilin yekun nəticələri gözləntilərin əksini göstərdi. Hesablama Palatasının “2025-ci il dövlət büdcəsinin icrası” haqqında qanun layihəsinə verdiyi rəydə də qeyd olunur ki, ötən il qeyri-neft-qaz sektorunda müşahidə olunan 2,7 faizlik artıma əsas töhfəni nəqliyyat və ticarət sahələri verib. Tikinti sektoru isə iqtisadiyyatın geriləmə qeydə alınan əsas istiqamətlərindən biri olub.***



## Əmlak

Bu vəziyyət ilk baxışda paradoksal görünür. Çünki son illərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı bərpa və quruculuq işləri ölkədə tikinti sektorunun əsas hərəkətverici qüvvələrindən biri hesab olunurdu. Yeni şəhərlərin salınması, yolların çəkilməsi, hava limanlarının tikintisi, yaşayış məntəqələrinin bərpası və infrastruktur layihələri fonunda sektorun geriləməsi suallar yaradır.

Ekspertlərin fikrincə, məsələ tikinti işlərinin tam dayanmasında deyil, sektorun ümumi iqtisadi çəkisinə təsir edən bir sıra amillərdə axtarılmalıdır. Əvvəla, Qarabağda həyata keçirilən iri layihələrin bir hissəsi artıq əvvəlki illərdə ən intensiv mərhələsini keçib. Böyük həcmli yol, tunel, enerji və hava limanı layihələrinin əhəmiyyətli hissəsinin tamamlanması tikinti işlərinin əvvəlki tempinin müəyyən qədər azalmasına səbəb olub. Bu isə statistik göstəricilərdə öz əksini tapıb.

Digər tərəfdən, ölkə üzrə yaşayış və kommersiya tikintisində müşahidə olunan nisbi zəifləmə də ümumi nəticələrə təsir göstərib. Son illərdə mənzil bazarında qiymətlərin yüksəlməsi, tikinti materiallarının bahalaşması və maliyyələşdirmə imkanlarının məhdudlaşması bəzi özəl layihələrin təxirə salınmasına və ya daha yavaş icra olunmasına gətirib çıxarıb.

Mütəxəssislər bildirirlər ki, tikinti sektoru yalnız dövlət sifarişli layihələrdən ibarət deyil. Sahənin ümumi göstəricilərinə yaşayış binaları, ticarət obyektləri, sənaye müəssisələri, özəl investisiya layihələri və fərdi tikintilər də daxildir. Dövlət hesabına həyata keçirilən böyük layihələrdə aktivlik davam etsə belə, özəl sektorun zəifləməsi ümumi statistikanı aşağı çəkə bilər.

Hesablama Palatasının məlumatları göstərir ki, 2022-2025-ci illərdə tikinti sektoru orta hesabla 9,6 faiz böyüyüb. Bu isə onu deməyə əsas verir ki, 2025-ci ildə qeydə alınan azalma daha çox əvvəlki sürətli artım tempindən sonra yaranan korreksiya xarakteri daşıyır. Başqa sözlə, sektor uzun müddət yüksək artım nümayiş etdirdikdən sonra müəyyən dayanma və ya yavaşlama mərhələsinə daxil olub.

Ekspertlər hesab edirlər ki, proqnozların özünü doğrultmamasının əsas səbəblərindən biri də dövlət investisiyalarının icra tempinin gözlənildiyi səviyyədə olmaması, bəzi layihələrin növbəti dövrlərə keçirilməsi və özəl investisiyaların ehtiyatlı davranması ilə bağlıdır. İlin əvvəlində hazırlanmış proqnozlar daha optimist ssenarilər üzərində qurulsa da, sonradan formalaşan iqtisadi şərait həmin gözləntilərin reallaşmasına imkan verməyib.

Bununla yanaşı, qeyri-neft-qaz sektorunda artımın əsas yükünü nəqliyyat və ticarət sahələrinin daşıması da iqtisadi aktivliyin strukturunda dəyişikliklərin baş verdiyini göstərir. Son illərdə Azərbaycanın regional logistika mərkəzi kimi mövqeyinin güclənməsi, tranzit daşımaların artması və daxili ticarətdə canlanma həmin sahələrin daha sürətli böyüməsinə şərait yaradıb.

■ **Mövzu ilə bağlı daşınmaz əmlak üzrə ekspert Elnur Azadov hesab edir ki, tikinti sektorunda müşahidə olunan zəifləmənin əsas səbəblərindən biri son illərdə daşınmaz əmlak bazarında yaşanan ciddi qiymət artımlarıdır.** Onun sözlərinə görə, pandemiyadan sonrakı dövrdə mənzil və daşınmaz əmlak bazarında təxminən 70 faizə çatan bahalaşma həm istehlakçılara, həm tikinti şirkətlərinə, həm də ümumilikdə iqtisadi aktivliyə mənfi təsir göstərib: “Daşınmaz əmlakın sürətlə bahalaşması ilk növbədə vətəndaşların mənzil əldə etməsini çətinləşdirib. Mənzillərin əlçatanlığının azalması bazarda alıcılıq qabiliyyətini zəiflədib. Nəticədə tikinti şirkətləri inşa etdikləri obyektləri əvvəlki sürətlə sata bilmirlər. Satışların azalması isə sektorun likvidliyinə mənfi təsir göstərir. Tikinti şirkətləri layihələrini reallaşdırmaqda çətinlik çəkdikcə yeni layihələrə başlamaq imkanları da məhdudlaşır. Bu isə tikinti sektorunun ümumi inkişaf tempini aşağı salır”.

Ekspertin fikrincə, tikinti sektorunun bugünkü vəziyyətini qiymətləndirərkən son on ildə bu sahədə baş verən struktur dəyişikliklərini də nəzərə almaq lazımdır: “2016-cı illə müqayisədə hazırda bazarda fəaliyyət göstərən tikinti şirkətlərinin sayı dəfələrlə azalıb. Həmin dövrdə paytaxt və bölgələrdə çoxsaylı tikinti şirkətləri fəaliyyət göstərirdi. Bunun əsas səbəblərindən biri Nazirlər Kabinetinin pilot layihələrlə bağlı qəbul etdiyi qərar idi. Rayon icra hakimiyyətləri öz ərazilərində qəzalı və köhnə yaşayış binalarının sökülərək yenidən tikilməsi üçün tikinti şirkətlərinə daha geniş imkanlar yaradırdı. Bu layihələr həm tikinti sektorunun inkişafına, həm də şəhər infrastrukturunun yenilənməsinə ciddi təkan verirdi”. E.Azadov qeyd edib ki, sonradan tikintiyə icazə və şəhərsalma proseslərinin mərkəzləşdirilməsi bazarda fərqli vəziyyət formalaşdırıb:

“2018-ci ildən etibarən bu sahədə səlahiyyətlərin Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə verilməsi ilə tikinti icazələrinin sayı əhəmiyyətli dərəcədə azaldı. Nəticədə bazara daxil olan şirkətlərin sayı da kəskin şəkildə aşağı düşdü. Bu isə rəqabət mühitinin zəifləməsinə səbəb oldu. Rəqabətin azalması fonunda qiymətlərin yüksəlməsi sürətləndi və bu gün də həmin prosesin nəticələri hiss olunur”.

Ekspert hesab edir ki, tikinti sektorunun yenidən canlanması üçün bazarda rəqabətin artırılması, yeni layihələrin həyata keçirilməsi və investisiya mühitinin genişləndirilməsi vacibdir: “Tikinti şirkətlərinin fəaliyyət imkanları genişləndirilməli, yeni layihələrin icrasına şərait yaradılmalıdır. Rəqabət mühitinin güclənməsi həm qiymətlərin sabitləşməsinə, həm də bazarın daha sağlam inkişafına kömək edə bilər.

Əks halda, mənzillərin əlçatanlığı ilə bağlı problemlər davam edəcək və bu da tikinti sektorunun inkişaf potensialını məhdudlaşdıracaq”. Ekspertin qənaətincə, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq layihələrinə baxmayaraq, ölkə üzrə tikinti sektorunun ümumi göstəricilərində zəifləmənin müşahidə olunması məhz bazarın digər seqmentlərində yaşanan problemlərlə əlaqədardır. Onun fikrincə, sektorun yenidən yüksək artım tempinə qayıtması üçün həm alıcılıq qabiliyyətinin artırılması, həm də tikinti bazarında rəqabətin genişləndirilməsi istiqamətində addımlar atılmalıdır.

✍ *Sevinc*

> “
> *Tikinti sektorunda müşahidə olunan zəifləmənin əsas səbəblərindən biri son illərdə daşınmaz əmlak bazarında yaşanan ciddi qiymət artımlarıdır*

# Müəllimlərə sonsuz minnətdarlıq

***Bakı şəhəri, Yasamal rayonu, Milli Qəhrəman Arif Hüseynzadə adına 20 nömrəli məktəb-liseyin 11 “B” sinfi üçün bu gün təkcə bir tədris ilinin deyil, bütöv bir məktəb həyatının yekunlaşdığı, sevinc və kövrək duyğuların bir-birinə qarışdığı əlamətdar gündür. Bu gün biz məzunlar olaraq keçdiyimiz on bir illik təhsil yoluna nəzər salır, bu yolda bizə elm öyrədən, tərbiyə verən, yol göstərən bütün müəllimlərimizə dərin hörmət və minnətdarlığımızı ifadə edirik.***



## Təhsil

Məktəb rəhbərliyimizə, xüsusilə də təlim-tərbiyə işləri üzrə direktor müavinimiz, bizə 5-ci sinifdən etibarən Rəqəmsal Bacarıqlar və STEAM fənlərini tədris edən Çinarə Kazımova müəllimə, həmçinin STEAM müəllimimiz Nəzakət Əhmədbəyliyə dərin təşəkkürümüzü bildiririk.

Onlar müasir texnologiyalar, innovativ düşüncə və yaradıcı yanaşma bacarıqlarımızın inkişafında böyük rol oynadılar. Verdikləri bilik və dəstək sayəsində biz gələcəyin dünyasına hazırlaşmağın vacibliyini dərk etdik, yeni ideyalar yaratmağı və texnologiyalardan səmərəli istifadə etməyi öyrəndik.

■ **Sinif rəhbərimiz Aytən Məcidovaya xüsusi təşəkkürümüzü bildiririk. Aytən müəllim bizim üçün sadəcə sinif rəhbəri deyil, hər zaman qayğımıza qalan, uğurlarımıza sevinən, çətin anlarımızda yanımızda olan doğma bir insan olmuşdur.** O, bizi bir sinif kimi birləşdirmiş, dostluğun, qarşılıqlı hörmətin və məsuliyyətin vacibliyini öyrətmişdir. Məktəb illərimizin ən gözəl xatirələrində Aytən müəllimənin əməyi, qayğısı və səmimiyyəti xüsusi yer tutur. Azərbaycan dili müəllimimiz Bəyim Kərimova Ana dilimizin zənginliyini, sözün qüdrətini və milli-mənəvi dəyərlərimizi bizə sevdirib. Onun sayəsində dilimizi daha dərindən öyrənmiş, fikirlərimizi düzgün və səlis ifadə etməyi bacarmışıq.

■ **Riyaziyyat müəllimlərimiz Mahur Hacıyeva və Günay Mustafayeva bizə məntiqi düşünməyi, qarşıya çıxan problemlərə düzgün həll yolları tapmağı öyrədiblər.** Onların səbirli və məsuliyyətli yanaşmaları bizə riyaziyyatın həyatın ayrılmaz hissəsi olduğunu göstərib.

■ **İngilis dili müəllimlərimiz Hökümə Qurbanova, Təranə Əliyeva və Mətanət Əliyeva bizə dünya ilə ünsiyyət qurmağın açarını təqdim etdilər.** Onların zəhməti nəticəsində xarici dil biliklərimiz inkişaf etdi və yeni imkanların qapıları üzümüzə açıldı.

■ Rus dili müəllimlərimiz Aygün Qasımova, Fidan Əfəndiyeva, Xavər Süleymanova, Firəngiz Kərimova bizə bu dili sevdirərək müxtəlif mədəniyyətləri daha yaxından tanımaq imkanı yaratdılar.

■ **Coğrafiya müəllimimiz Könül Şiriyeva bizi dünyanın müxtəlif guşələrinə apararaq təbiətin, ölkələrin və xalqların rəngarəngliyi ilə tanış etdi.** Onun dərsləri sayəsində dünyaya baxışımız daha da genişləndi.

■ **Biologiya müəllimimiz Şərqiyə Məmmədova canlı aləmin sirlərini bizə öyrədərək təbiətə və həyata daha böyük maraq formalaşdırdı.** Onun dərsləri bizə insanın və təbiətin bir-biri ilə ayrılmaz bağlılığını anlatdı.

■ **Həyat bilgisi müəllimlərimiz Sevda Əhmədova, Pərvanə Tağıyeva bizə yalnız bilik deyil, həm də düzgün həyat prinsipləri aşıladılar.** Onların tövsiyələri gələcək həyat yolumuzda bizə bələdçi olacaq.

■ **Kimya müəllimlərimiz Sevda Əhmədova və Xatirə Abdullayeva maddələrin sirli dünyasını sevdirərək elmin maraqlı tərəflərini bizə tanıtdılar.** Onların əməyi sayəsində müşahidə etməyi və araşdırma aparmağı öyrəndik.

■ **Fiziki tərbiyə müəllimlərimiz Nərgiz Allahverdiyeva, Sahib Mustafayev və Rövşən Şirinov bizə sağlam həyat tərzinin əhəmiyyətini aşıladılar.** Onların rəhbərliyi ilə həm fiziki hazırlığımız, həm də komandada işləmək bacarığımız inkişaf etdi.

■ **Təsviri incəsənət müəllimimiz İradə İsayeva gözəlliyi görməyi və yaradıcılığı qiymətləndirməyi bizə öyrətdi.** Onun dərsləri estetik zövqümüzün formalaşmasına mühüm töhfə verdi.

■ **Tarix müəllimlərimiz Nailə Məmmədova və Günel Paşayeva keçmişimizi öyrədərək vətənimizin tarixini sevməyi, tarixi hadisələrdən nəticə çıxarmağı öyrətdilər.** Onların dərsləri milli kimliyimizin daha dərindən dərk edilməsinə xidmət etdi.

■ **Fizika müəllimələrimiz Mahirə Osmanova və Yusif Əsədullayev bizə kainatın qanunlarını, elm və texnologiyanın əsaslarını öyrətdilər.** Onların sayəsində ətrafımızda baş verən hadisələrə daha elmi yanaşmağı bacardıq.

■ İnformatika müəllimələrimiz Şəms Kərimova, Mehriban Həsənova və Aysel Fətəliyeva müasir informasiya texnologiyalarından istifadə etməyi öyrədərək bizi rəqəmsal dünyanın imkanları ilə tanış etdilər.

■ Musiqi müəlliməmiz Nuranə Paşayeva musiqinin insan ruhuna təsirini hiss etdirdi, incəsənətə sevgimizi artırdı və mənəvi dünyamızın zənginləşməsinə töhfə verdi.

■ **Gənclərin Çağırışaqədərki Hazırlığı müəllimimiz Pəhləvan Quliyev bizə vətənpərvərlik hisslərini, intizamı və məsuliyyəti aşıladı.** Onun dərsləri Vətənə sevgi və xidmət anlayışını daha dərindən dərk etməyimizə kömək etdi. Onun bizə aşıladığı bu sevginin nəticəsində mən hərbçi olmaq qərarına gəldim.

Əziz müəllimlərimiz! Bu gün əldə etdiyimiz hər uğurun arxasında sizin zəhmətiniz, biliyiniz, səbriniz və fədakarlığınız dayanır. Siz bizə yalnız dərs keçmədiniz, həm də insan olmağı, məqsədlərimizə doğru inamla addımlamağı öyrətdiniz. Məktəb illəri başa çatsa da, verdiyiniz biliklər, dəyərlər və xatirələr ömrümüz boyu bizimlə olacaq.

11 “B” sinfi adından hər birinizə dərin ehtiram və sonsuz təşəkkürümüzü bildiririk. Yolunuz daim işıqlı, ömrünüz sağlam və uğurlu olsun. Bizim qəlbimizdə hər zaman əziz müəllimlərimiz kimi yaşayacaqsınız.

Məzun Günümüz mübarək, əziz müəllimlərimiz!

✍ *Tuncay Şəhrili,*
*20 nömrəli məktəb-liseyin*
*11 “B” sinfindən məzun*

***Son illər restoran sektorunda diqqətçəkən bir tendensiya formalaşıb: “kabab seti” anlayışı. Xüsusilə sosial şəbəkələrdə 4-8 nəfərlik adla təqdim olunan bu menyular ilk baxışda zəngin və dolğun görünür. Müxtəlif kabab növləri, qarnirlər, salatlar və içkilər. Menyunun detallarına enəndə bir məqam dərhal diqqət çəkir. Bir zamanlar kababın əsas simvolu sayılan tikə kabab bir çox setlərdə ya ümumiyyətlə yoxdur, ya da ayrıca sifariş kimi təqdim olunur. Əslində, ənənəvi mətbəx məntiqində kabab deyəndə ilk assosiasiya məhz tikə kabab idi. Lakin müasir restoran modelində prioritetlər dəyişib. İndi əsas məqsəd təkcə dad deyil, həm də standartlaşdırma, maya dəyərinin idarə olunması və vizual satış effektidir.***

# Yarımçıq kabab seti



## İstehlak

Mütəxəssislərin fikrincə, tikə kababın setlərdən “çıxarılması”nın ilk səbəblərindən biri iqtisadi amillərlə bağlıdır. Keyfiyyətli tikə kabab üçün tələb olunan ət daha bahalıdır və qiymət sabitliyini qorumaq çətindir. Restoranlar isə set menyularında sabit qiymət siyasəti tətbiq etdiklərindən, dəyişkən xammal xərcləri risk yaradır. Bu səbəbdən tikə kabab çox vaxt “premium əlavə” kimi ayrıca menyuya köçürülür.

Digər mühüm faktor isə mətbəx idarəetməsidir. Set menyular kütləvi sifarişlərin sürətli və eyni standartda hazırlanması üçün nəzərdə tutulur. Lülə, toyuq şişi və digər kabab növləri bişirmə baxımından daha proqnozlaşdırıla billəndir. Tikəkabab isə həm marinasiya, həm də bişirmə prosesində daha incə nəzarət tələb edir və böyük həcmdə eyni keyfiyyəti saxlamaq restoranlar üçün əlavə yük yaradır.

Bununla yanaşı, müasir restoranların marketinq yanaşması da dəyişib. Sosial şəbəkələrdə təqdim olunan “kabab setləri” təkcə dad deyil, vizual zənginlik üzərində qurulur.

Rəngarəng kabab çeşidləri, qarnirlər və dekorativ təqdimat Instagram estetikasına daha uyğun görünür. Tikə kabab isə vizual baxımdan daha sadə olduğu üçün bəzi hallarda “set dramaturgiyasına” daxil edilmir. Burada daha strateji bir məqam da var: satış modeli. Setlərin tərkibindən tikə kababın çıxarılması çox vaxt müştərini əlavə sifarişə yönləndirir. Yəni set “cəlbedici paket” kimi təqdim olunur, lakin tikə kabab istəyən müştəri onu ayrıca almalı olur. Bu da restoran üçün əlavə gəlir deməkdir. Nəticədə ortaya maraqlı bir paradoks çıxır: müştəri “kabab seti” sifariş edərkən ənənəvi kabab təcrübəsini gözləyir, restoran isə bunu daha çox biznes və optimizasiya baxımından qurulmuş məhsul kimi təqdim edir.

■ **Mövzu ilə bağlı Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirib ki, restoranların təqdim etdiyi set menyuların tərkibini formalaşdırmaq hüququ var və onlar kommersiya baxımından hansı məhsulları həmin paketə daxil edib-etməməyi özləri müəyyənləşdirə bilərlər. Lakin əsas məsələ istehlakçının düzgün və dolğun şəkildə məlumatlandırılmasıdır.** Onun sözlərinə görə, əgər kabab seti təqdim olunursa, istehlakçının gözləntisi həmin setdə Azərbaycan mətbəxində ən çox tanınan və sifariş edilən kabab növlərinin, xüsusilə də tikə kababın yer almasıdır. Bu baxımdan tikə kababın setə daxil edilməsi həm müştəri məmnuniyyətinin artırılmasına, həm də restoranların xidmət keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərə bilər.

“Eyni zamanda nəzərə almaq lazımdır ki, Azərbaycana gələn xarici turistlərin əksəriyyəti yerli mətbəxin xüsusiyyətlərini tam bilmir. Onlar menyuda ‘kabab seti’ ifadəsini gördükdə, bunun ölkənin ən məşhur kabab çeşidlərini əhatə etdiyini düşünürlər. Buna görə də setlərin məzmununun daha əhatəli hazırlanması və ən populyar məhsulların ora daxil edilməsi həm xidmət mədəniyyətinə, həm də turizm sektorunun inkişafına töhfə verə bilər”, - deyə ekspert vurğulayıb.

E. Hüseynov hesab edir ki, tikə kababın setə daxil edilməməsi qanun pozuntusu sayıla bilməz. Sahibkar təqdim etdiyi məhsulun tərkibini özü müəyyənləşdirə bilər. Burada istehlakçı hüquqlarının mühüm elementi olan məlumatlandırma prinsipi tam təmin edilməlidir. Menyuda setin tərkibi açıq və aydın şəkildə göstərilməli, müştəri sifariş verməzdən əvvəl hansı məhsullar əldə edəcəyini dəqiq bilməlidir.

Ekspert qeyd edib ki, əgər istehlakçı kabab seti sifariş etdikdən sonra tikə kababın ayrıca ödənişli məhsul olduğu ilə qarşılaşırsa və bu barədə əvvəlcədən məlumatlandırılmayıbsa, bu, istehlakçı məmnuniyyətinə mənfi təsir göstərən hal kimi qiymətləndirilə bilər. Belə yanaşma qanunvericiliyə zidd olmasa da, müştəri etimadının və istehlakçı simpatiyasının qazanılması baxımından uğurlu biznes modeli hesab edilmir.“Restoranlar qısamüddətli əlavə gəlirdən daha çox uzunmüddətli müştəri loyallığını düşünməlidirlər. Şəffaf məlumatlandırma, dürüst təqdimat və istehlakçı gözləntilərinə uyğun xidmət göstərilməsi müəssisələrin nüfuzunu artıran əsas amillərdir. Müştəri set sifariş edərkən sonradan əlavə məhsul almağa məcbur qalmamalı, bütün şərtlər əvvəlcədən ona izah edilməlidir”, - deyə E.Hüseynov əlavə edib.

Onun fikrincə, bu məsələdə əsas meyar qanun deyil, istehlakçıya göstərilən hörmət və xidmət mədəniyyətidir. Restoranlar menyularını formalaşdırarkən məhz bu prinsipləri əsas götürsələr, həm yerli müştərilərin, həm də turistlərin rəğbətini qazana və müştəri bazalarını genişləndirə bilərlər.

✍ *Sevinc*

> “
> *Tikə kababın setə daxil edilməsi həm müştəri məmnuniyyətinin artırılmasına, həm də restoranların xidmət keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərə bilər*

# Yayın şortik davası

**_Yayın gəlişi ilə Azərbaycanda hər il təkrarlanan bir mübahisə yenidən gündəmə qayıdıb. Ötən il bəzi rayonlarda şortik geyinən şəxslərə qarşı etirazlar, mübahisələr və sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olan videolar yayılmışdı. Bu il isə ilk qalmaqallı görüntülər paytaxtın tarixi mərkəzi olan İçərişəhərdə qeydə alınıb. Şortik geyinən gənclə yaşlı sakin arasında baş verən mübahisə bir daha göstərdi ki, cəmiyyət bu məsələdə hələ də ortaq mövqeyə gələ bilməyib._**



“

*İnsanlar tərz seçərkən məkanı, zamanı və mühiti də nəzərə almalıdırlar*

*Geyim tərzinə görə başqalarını tənqid edən insanların bir qismi sosial uğur və özünürealizasiya baxımından məmnun olmayan şəxslər ola bilər*

## Cəmiyyət

Məsələyə münasibətlər isə iki fərqli istiqamətdə formalaşır. Bir qrup vətəndaş hesab edir ki, geyim seçimi şəxsi azadlıqdır və heç kəs başqasının geyiminə görə təhqir və ya təzyiqə məruz qalmamalıdır. Digər tərəf isə bəzi ictimai məkanlarda və xüsusilə ənənəvi dəyərlərin güclü olduğu yerlərdə daha konservativ geyim tərzinin gözlənildiyini bildirir. Sosioloqların fikrincə, problem təkcə geyimlə bağlı deyil. Burada nəsillərarası baxış fərqləri, urbanizasiya, qloballaşma və fərdi azadlıqlara münasibət kimi amillər də rol oynayır. Son illərdə sosial şəbəkələrin təsiri ilə dünya standartlarına uyğun geyim tərzi daha geniş yayılıb. Lakin cəmiyyətin bir hissəsi bu dəyişiklikləri qəbul etməkdə çətinlik çəkir.

Maraqlıdır ki, şortik ətrafında mübahisələr Azərbaycanda yeni deyil. İllər əvvəl də turistlərin və yerli sakinlərin geyiminə görə narazılıqlar yaşanmış, bəzi hallarda hüquq-mühafizə orqanlarının müdaxiləsinə ehtiyac yaranmışdı. Ekspertlər hesab edirlər ki, hüquqi baxımdan qadağan olunmayan geyimə görə insanlara təzyiq göstərilməsi doğru deyil. Eyni zamanda, ictimai davranış qaydalarına qarşılıqlı hörmət də vacib hesab olunur. Məhz buna görə məsələnin həlli qadağalarda deyil, cəmiyyətdə tolerantlıq və qarşılıqlı anlayışın gücləndirilməsində görülür.

■ **Sosioloq Üzeyir Şəfiyev hesab edir ki, insanların geyim seçimində azad olması şübhə doğurmur. Lakin onun sözlərinə görə, azadlıq məsuliyyət hissi ilə müşayiət olunmalıdır: “İnsanlar geyim seçərkən azad seçim imkanlarına malikdir.** Ancaq azadlıq dərk edilmiş zərurət kimi şüur hadisəsidir. İnsanlar tərz seçərkən məkanı, zamanı və mühiti də nəzərə almalıdırlar. Tərzlər mühitə uyğun olmayanda ictimai narazılıqla qarşılanır”.

Ekspert bildirir ki, fərdlə cəmiyyət arasında bu tip qarşıdurmalar yeni deyil və sosial inkişafın bir hissəsi hesab oluna bilər. Onun fikrincə, cəmiyyət müəyyən norma və davranış qaydaları formalaşdırır, fərdlər isə zaman-zaman həmin çərçivələri genişləndirməyə çalışırlar. Nəticədə tərəflər arasında müəyyən gərginlik yaranır. Sosioloqun qənaətinə görə, geyim məsələsinə nə ifrat mühafizəkarlıq, nə də tam sərhədsiz azadlıq prizmasından yanaşmaq doğru deyil: “İnsan sosial varlıqdır və yaşadığı mühitin dəyərlərinə hörmətlə yanaşmalıdır. Eyni zamanda cəmiyyət də faydalı yeniliklərə açıq olmalı, fərdi sərt konservativ yanaşmalarla boğmamalıdır. Fərd və cəmiyyət qarşılıqlı gözləntilər şəraitində yaşamalıdır”.

Ekspertin fikrincə, problemin kökündə şortikin özü deyil, müxtəlif nəsillərin və sosial qrupların ictimai məkanla bağlı fərqli təsəvvürləri dayanır. Bu baxımdan, məsələ geyimdən daha çox qarşılıqlı hörmət və sosial davranış mədəniyyəti ilə əlaqəlidir.

■ **Mövzu ilə bağlı psixoloq Vəfa Rəşidova bildirib ki, bu cür aqressiv reaksiyalar çox vaxt fərdi daxili gərginlik və sosial-psixoloji faktorlarla bağlı olur:** “Əgər hansısa bir kişinin həyatında, ailə modelində şortik geyinmək yoxdursa və bu da onu həyata keçirmək istəyir, amma ailənin basqısından edə bilmirsə, edə bilənlərə bu şəkildə savaş açacaq. Şortik geyinən adam bunu ofisdə yox, istirahətdə geyinirsə, bu artıq şəxsi seçimdir”.

Psixoloqun fikrincə, geyim tərzinə görə başqalarını tənqid edən insanların bir qismi sosial uğur və özünürealizasiya baxımından məmnun olmayan şəxslər ola bilər: “Bəzən insanlar başqasının həyatını müzakirə etməklə öz daxili boşluqlarını kompensasiya edirlər. Dünya görüşlü və özünü inkişaf etdirmiş insan adətən belə xırda mövzulara fokuslanmır. Burada söhbət geyimdən yox, düşüncə tərzindən gedir”.

Onun sözlərinə görə, problem təkcə fərdi psixologiyada deyil, həm də sosial mühitdə formalaşan stereotiplərdədir: “Uşaqlıqdan formalaşan “ayıbdır”, “olmaz”, “belə etmə” kimi çərçivələr bəzi insanlarda sərt düşüncə yaradır. Bu da böyüdükcə, başqasının seçimlərinə müdaxilə formasında özünü göstərir”.

✍ *Sevinc*

# Elektron xəstəlik vərəqəsi sisteminin tətbiqi başa çatdırılıb

***Rəqəmsal səhiyyə ekosisteminin formalaşdırılması istiqamətində həyata keçirilən ən mühüm layihələrdən biri Vahid Səhiyyə İnformasiya Sisteminin inkişaf etdirilməsi olub. Bu çərçivədə müxtəlif informasiya sistemləri və dövlət reyestrləri arasında inteqrasiya təmin edilib, tibbi məlumatların vahid platformada toplanması və idarəolunması istiqamətində mühüm nəticələr əldə edilib.***

Hazırda sistemin “hökumət buludu”na miqrasiyası tam başa çatdırılıb ki, bu da məlumatların təhlükəsizliyinin, əlçatanlığının və sistemlərin dayanıqlığının artırılmasına xidmət edir. Bu barədə Səhiyyə Nazirliyinin Rəqəmsal Səhiyyə Mərkəzindən məlumat verilib. Bildirilib ki, Səhiyyə Nazirliyinin tətbiq etdiyi innovativ həllər sırasında “Elektron resept” sistemi xüsusi yer tutur. Sistem həkimlərə reseptlərin elektron formada tərtib edilməsinə, vətəndaşlara isə təyin olunmuş dərman vasitələrinə dair məlumatları rəqəmsal şəkildə əldə etməyə imkan yaradır. Bu yanaşma dərman təyinatlarının izlənilməsini asanlaşdırır, insan amilindən qaynaqlanan səhvləri minimuma endirir və xidmətlərin daha şəffaf həyata keçirilməsini təmin edir.



Bununla yanaşı, ölkə üzrə elektron xəstəlik vərəqəsi sisteminin tətbiqi tam başa çatdırılıb və bu sahədə kağız daşıyıcılardan istifadə ləğv olunub. Həmçinin elektron epikrizlərin vahid reyestri yaradılıb, sosial ödənişlər və tibbi sığorta proseslərində elektron epikrizlərdən istifadəyə başlanılıb. Bu yeniliklər həm vətəndaşların, həm də tibb işçilərinin vaxt itkisini azaltmaqla yanaşı, məlumatların daha operativ və etibarlı mübadiləsini təmin edir. Həmçinin rəqəmsal xidmətlərin vətəndaşlar üçün daha əlçatan olması məqsədilə “Elektron Səhiyyə” platforması və mobil tətbiqi inkişaf etdirilib. Platforma vasitəsilə vətəndaşlar reseptlərə, xəstəlik vərəqələrinə, tibbi arayışlara və digər sağlamlıq məlumatlarına çıxış əldə edir, müxtəlif elektron xidmətlərdən istifadə edə bilirlər. Eyni zamanda, tibb işçiləri üçün işə qəbul, sertifikasiya, davamlı tibbi təhsil və digər peşəkar proseslər də rəqəmsal müstəviyə keçirilib.

“Cari ildə təqdim olunan “Tibbi Rəqəmsal Əkiz Sistemi” isə ölkənin rəqəmsal səhiyyə inkişafında yeni mərhələnin əsasını qoyur. Beynəlxalq FHIR standartları əsasında qurulan sistem 20-dən çox rəqəmsal həlli vahid mühitdə birləşdirərək vətəndaşların sağlamlıq məlumatlarının təhlükəsiz və fasiləsiz mübadiləsini təmin edir. Platforma real vaxt rejimində sağlamlıq göstəricilərinin monitorinqinə, təkrarlanan analiz və tibbi prosedurların azaldılmasına, profilaktik tədbirlərin daha səmərəli təşkilinə, eləcə də gələcəkdə süni intellektəsaslı analitika və qərar dəstəyi mexanizmlərinin tətbiqinə geniş imkanlar yaradır. Ümumilikdə, son illərdə həyata keçirilən rəqəmsallaşma tədbirləri nəticəsində Azərbaycan səhiyyəsində vahid məlumat ekosisteminin formalaşdırılması, xidmətlərin elektronlaşdırılması, vətəndaş məmnunluğunun artırılması və məlumatlara əsaslanan idarəetmə modelinin qurulması istiqamətində mühüm nailiyyətlər əldə olunub, - deyə məlumatda vurğulanıb.

## HƏFTƏ REYTİNQ

### Həftənin QAPIÇISI



Kabo-Verde millisinin qapıçısı Vozinya dünya çempionatının qrup mərhələsinin ilk turundan sonra gündəm olub. İspaniya ilə matçdan əvvəl onun instaqram hesabında cəmi 50 min izləyicisi var imiş. Qarşılaşmada inamlı çıxış edən çərçivə qoruycusunun matçdan sonra izləyicilərinin sayı 2 milyona qalxıb. Bu isə qapıçı üçün sürpriz olub.

### Həftənin NƏTİCƏSİ



Ermənistan Mərkəzi Seçki Komissiyası seçkilərin yekun nəticələrini açıqlayıb. “Vətəndaş müqaviləsi” partiyası 49,7 faiz, “Güclü Ermənistan” 23,2 faiz və “Ermənistan” 9,9 faiz səs toplayıb. “Çiçəklənən Ermənistan” partiyası isə parlamentə daxil olmaq üçün 4 faizlik baryeri keçə bilməyib. O 3,9 faiz səs əldə edib. Beləliklə, Ermənistanın Baş naziri Nikol Paşinyanın ”Vətəndaş müqaviləsi” partiyası hökuməti təkbaşına formalaşdıracaq.

### Həftənin KURYOZU



Rusiyanın Utair aviaşirkətinə məxsus təyyarədə sərnişin uçuş zamanı səhvən təyyarənin qapısını açmağa çalışıb. Hadisə Moskvadan Naxçıvana uçan təyyarədə baş verib. Belə ki, təyyarə Xəzər dənizi üzərindən uçarkən tualet axtaran bir qadın qapını dartmağa başlayıb. Onun bu hərəkəti həyəcan siqnalının işə düşməsinə səbəb olub. Operativ müdaxilə ilə siqnal kəsilib və salonda hər hansı təzyiq itkisi baş verməyib.

### Həftənin AZARKEŞİ



Almaniyanın Kürasaonu 7:1 hesabı ilə məğlub etdiyi matç zamanı tribunada qeyri-adi bir görüntü diqqət çəkib. Oyunun gedişində bir azarkeşin 1933-1945-ci illərdə Almaniyaya rəhbərlik etmiş nasist lider Adolf Hitlerə bənzər xarici görünüşdə olduğu müşahidə edilib. Sözügedən şəxs kameralar tərəfindən qısa müddət görüntülənib və bu kadrlar sosial mediada müzakirələrə səbəb olub.

### Həftənin OLAYI



Braziliyada kəndirlə yüksəklikdən tullanma (bungee jumping) əyləncəsi faciə ilə başa çatıb. Məlumata görə, 21 yaşlı gənc qadın təhlükəsizlik kəndirləri bağlanmadan körpüdən aşağı buraxılıb. Təxminən 40 metr yüksəklikdən yıxılaraq ağır xəsarətlər alan qız bütün müdaxilələrə baxmayaraq həyatını itirib. Hadisə ilə bağlı başladılan cinayət işi çərçivəsində təşkilatçı qrupdan 6 nəfər saxlanılıb.

### Həftənin QƏHRƏMANI



Çeçenistan rəhbəri Ramzan Kadırovun 18 yaşlı oğlu Adam Kadırov “Çeçenistan Respublikasının Qəhrəmanı” adına layiq görülüb. Respublikanın ən ali mükafatını ona atası Ramzan Kadırov təqdim edib. Qeyd edək ki, daha əvvəl o, 2023-cü ildə “Qurani-i Kərim” kitabını yandırmaqda təqsirləndirilərək saxlanılan Nikita Juravel adlı gənci döyməsinin görüntüləri yayıldıqdan sonra “Çeçenistan Respublikasının Qəhrəmanı” adına layiq görülmüşdü. Xatırladaq ki, A.Kadırov 2025-ci ilin aprel ayında respublikanın Təhlükəsizlik Şurasının katibi elan edilib.

✍ *Azad Əliyev*

## GÜNÜN FOTOSU



Norveçin qol ümidi iş başında

“

## Yarımçıq kabab seti

**Eyyub Hüseynov,**
Azad İstehlakçılar Birliyinin sədri

Tikə kababın setə daxil edilməsi həm müştəri məmnuniyyətinin artırılmasına, həm də restoranların xidmət keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərə bilər.

▸▸ Səh. 7

## STATİSTİKA



■ **Bu ilin birinci rübünün sonuna Azərbaycanın strateji valyuta ehtiyatları 117,4 milyon dollar artaraq 85,2 milyard dollar təşkil edib.**

”Dövr ərzində ölkənin ehtiyat aktivlərinin reallaşmış hissəsi təxminən 300 milyon dollar azalıb. Lakin buna baxmayaraq ölkənin strateji valyuta aktivləri ilin əvvəlindən bu ilin birinci rübün sonuna 117,4 milyon dollar artaraq 85,2 milyard dollar təşkil edib.



▸▸ Səh. 4

## Diz və bud oynaqlarımızın ən böyük düşməni